QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 029 (6229) 16 fevral 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## İlham Əliyev: Heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın!



*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar*

Bax 2

### Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində işğaldan azad olunmuş ərazilərə səfərlə bağlı görüntülər paylaşıb



Bax 2

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına...

### Hikmət Hacıyev: "Kasıb ölkələrin də vaksinlərə çıxışını təmin etmək lazımdır"



Bax 7

*Azərbaycan yalnız ölkə daxilində deyil, eyni zamanda qlobal səviyyədə də koronavirusla mübarizəyə mühüm töhfə verir. Bunu Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev "COVİD-19 pandemiyasının və vaksinasiyanın geopolitikası" adlı konfransda deyib. H.Hacıyev vurğulayıb ki, BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılması...*

### İqor Korotçenko: Qarabağ müharibəsində Qələbə Prezident İlham Əliyevin siyasətinin zəfəridir



2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilmiş, görüşdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol...

Bax 7

### Ərdoğandan Baydenə çağırış: Sən də bunları yaxşı tanı



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın yeni prezidenti Cozef Baydenə müraciət edib. Türkiyə lideri, yeni seçilən amerikalı həmkarını terrorçularla bağlı obyektiv mövqe tutmağa çağırıb. "Separatçı terror təşkilatı 1984-cü ildən...

Bax 9

### Rusiyanın taxıl ixracına kvota tətbiq etməsi Azərbaycana təsir edəcəkmi?



Bax 10

Dünəndən başlayaraq iyulun 30-na qədər Rusiyadan buğda, çovdar, arpa və qarğıdalı da daxil olmaqla, bir sıra dənli bitkilərin ixracına 17,5 milyon tonluq kvota tətbiq ediləcək. "Report" Azərbaycanın da Rusiyadan taxıl idxal etdiyini nəzərə alaraq bu qərarın ölkəmizə təsir edib-etməyəcəyini araşdırıb. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi...

### Sabiq səfir: İranın XİN rəhbəri Paşinyanı məzəmmət edib



Bax 14

### Qarabağ "yaşıl enerji" zonasına çevriləcək



Bax 15

### UEFA klublarımıza nə qədər pul ödəyib?

Bax 16

# İlham Əliyev: Heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın!

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar*





## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində işğaldan azad olunmuş ərazilərə səfərlə bağlı görüntülər paylaşıb

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərlə bağlı görüntülər paylaşıb. AZƏRTAC həmin görüntüləri təqdim edir.

*İlham Əliyev: Heç kim bizi bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!*



**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaq üçün Füzuli rayonuna gəldi.

Məlumat verildi ki, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Dövlətimizin başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu.

XXX

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Üçüncü Ağalı kəndində oldular. Zəngilana gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:

-Zəngilan rayonuna gəlmişik. Yolumuz Laçın rayonunadır. Yol boyunca Zəngilan rayonunda da tədbirlər var. Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlamışdır.

Bura Zəngilan şəhəridir. Biz burada artıq olmuşuq, yenə də gəlmişik. Zəngilan şəhəri də digər şəhərlər kimi düşmən tərəfindən demək olar tamamilə dağıdılmışdır. Bir neçə ev qalmışdır. Burada onların hərbi hissəsi, polis bölməsi yerləşirdi. Bir də ki, xaricdən gələn ermənilər, burada qanunsuz yaşayan ermənilər. Zəngilanı, bax, bu günə qoyub mənfur düşmən.

Bütün şəhərlərimizin baş planları hazırlanır. Təqdim olunacaq, müzakirə ediləcək. Ondan sonra bərpa işlərinə start veriləcək.



Keçən dəfə Zəngilan şəhərinə gələndə bu bayrağı burada mən ucaltdım.

Zəngilan rayonunda birinci "ağıllı kənd" layihəsi icra ediləcək. Bu gün layihəyə start verilir. Artıq ilkin araşdırmalar aparılıb. Bu, dağılmış Ağalı kəndidir. Bərpa ediləcək birinci kənd məhz bu kənddir.

Dövlətimizin başçısına Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq "ağıllı kənd" layihəsi barədə məlumat verildi.

Bildirildi ki, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir.

Qeyd edək ki, Prezident İlham Əliyev çıxışlarında azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevriləcəyini dəfələrlə bildirib. Erməni işğalından azad olunmuş ərazilərin dövlətimizin başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur.

Ardı Səh. 3

# İlham Əliyev: Heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın!

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar*





*Prezident İlham Əliyev: Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan dəmir yolu ilə bir-birinə bağlanacaq*



Əvvəli Səh. 2

Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq. Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

XXX

Daha sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Laçın rayonuna yola düşdülər. Yol boyunca Qubadlı rayonunun işğaldan azad edilən kəndləri barədə danışan Prezident İlham Əliyev dedi:

-Bura Qubadlı rayonunun Xəndək kəndidir. Burada da şiddətli döyüşlər gedib. Ordumuz düşməni buradan qovaraq, məhv edərək bu əraziləri də azad etmişdir. Düşmən burada da qanunsuz olaraq məskunlaşmışdı. Çox ağır şəraitdə yaşayıblar. Baxın, görün, onların yaşadıqları evlər it damından artıq deyil. Mən deyəndə ki, o vaxt işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, bunu nəzərdə tuturdum. Aclıq, səfalət, qanunsuzluq hökm sürürdü. Belə bərbad yollardan istifadə edirdilər. Bu işıq dirəklərini biz torpaqları azad edəndən sonra quraşdırdıq.

Qubadlı rayonunun Muradxanlı kəndi, ermənilər burada yaşayıblar, buranı da dağıdıblar. Artıq bərpa işləri gedir. Bu da Həkəri kəndidir. Baxın, nə gündədir, ermənilər bu it damında yaşayıblar. Dağıdılmış bu evlər erməni faşizminin törətdiyi əməllərdir. Bütün dünya görsün bunları. Bu da onların traktorudur.

Bala Soltanlı kəndi. Burada evlərin böyük hissəsi dağıdılıb, amma bəzi evlərdə düşmən qanunsuz məskunlaşma aparmışdı. Bu da hərbi cinayət sayılır. Bütün bu cinayətlərə görə düşmən artıq öz payını alıb, cavabını verib, beynəlxalq müstəvidə də cavabını verəcəkdir. Bizim şanlı ordumuz, bax, bu yolla Laçın rayonuna keçmişdir və Laçın rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. O cümlədən Güləbird kəndi də ordumuz tərəfindən işğalçılardan azad edilmişdir. Bura Laçın rayonunun cənub hissəsidir. Ordumuz işğalçılardan azad etmişdir. Şimal hissəsi isə Ermənistanın kapitulyasiyasından sonra bizə qaytarıldı.

Bu da Padar kəndidir.

Qubadlı rayonunun Yusifbəyli kəndi. Bu kənd də düşmən tərəfindən tamamilə dağıdılıb. Biz indi Laçın rayonuna gedirik. Laçın rayonunun Güləbird kəndinə. Zəngilan rayonunun İkinci Ağalı kəndində olduq, kəndin inkişafı ilə bağlı təqdimat edildi. Bir neçə aydan sonra İkinci Ağalı kəndinin yenidən qurulması prosesinə start veriləcək. Bu, bərpa ediləcək birinci kənd olacaq. İkinci Ağalı kəndi "ağıllı kənd" konsepsiyası əsasında qurulacaq. Eyni zamanda, Birinci və Üçüncü Ağalı kəndlərinə qayıdacaq soydaşlarımız da eyni imkanlardan istifadə edəcəklər.

İndi isə Mərdanlı kəndinə daxil oluruq. Günəş də çıxır, yolumuzu işıqlandırır. Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik.

Bura artıq Laçın rayonunun ərazisidir. Bu, Həkəri çayıdır. Görün, nə gözəl çaydır? Çayımızı da düşmən istismar etmişdir, təbiətimizi də istismar etmişdir. Biz buna son qoyduq, düşməni rədd etdik.

Artıq Güləbird kəndindəyik. Güləbird kəndini də düşmən dağıdıb, talan edib. Güləbird kəndinə gəlməyimizin səbəbi qısa müddət ərzində inşa edilmiş su elektrik stansiyasının açılışıdır və bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq, digər stansiyalar da tikiləcək. Azad edilmiş bütün torpaqlarda su, Günəş, külək enerjisindən istifadə edəcəyik.

Ardı Səh. 4

# İlham Əliyev: Heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın!

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar*



## Prezident: Biz enerji generasiya güclərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik





Əvvəli Səh. 3

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı və çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin. Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. "Azərişıq" artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün "Azərenerji" Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir.

Bu gün isə Laçın rayonunun cənub hissəsindəyik, Güləbird kəndinin ərazisində. Bu gün Güləbird kəndində Su Elektrik Stansiyasının açılışıdır. Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş - ay yarımdan sonra artıq burada Su Elektrik Stansiyası istismara verilir. Bu Su Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik.

Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyalarını darmadağın edib, avadanlığı buradan çıxarıb, stansiyaların binalarını da dağıdıb. O cümlədən Güləbird Su Elektrik Stansiyası düşmən tərəfindən dağıdılmışdır. Əks-təqdirdə, bu stansiya elə dekabrın 1-dən bizə xidmət göstərəcəkdi. Ancaq verilən tapşırıqlarım qısa müddət ərzində yerinə yetirildi və bu gün biz 8 meqavat gücündə Güləbird Su Elektrik Stansiyasının açılışını qeyd edirik. Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpaolunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında ən böyük potensiala "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni, biz bir neçə ildən sonra 120 meqavat "Xudafərin" və "Qız Qalası" stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin. Belə bir göstəriş verildi və bu gün Zəngilan rayonunda birinci pilot "ağıllı kənd" layihəsi də məhz bərpaolunan enerji ilə təchiz ediləcəkdir.

Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik.

Mən bu proqramı elan edəndə bunu nəzərdə tuturdum və bu gün birinci layihə - bax, orada gördüyünüz Güləbird Su Elektrik Stansiyası artıq istismara verilir.

Bizim böyük planlarımız var. Biz bərpa işlərinə start verdik. Çalışacağıq ki, minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatsın, dəymiş ziyanın qiymətləndirilməsi aparılsın və bununla paralel olaraq, artıq infrastruktur layihələrinə start verildi. Bu gün Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək.

Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir - biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik. Eyni zamanda, ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq önəmli sənədləri imzaladıq. Noyabrın 10-da imzalanmış Birgə Bəyanat, əlbəttə ki, Laçın, Kəlbəcər və Ağdam rayonunun qaytarılmasını təmin etdi, bir güllə atmadan biz bu torpaqlara qayıtdıq. Eyni zamanda, Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsi də məhz o Bəyanatda təsbit olunur. Həmçinin bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır. Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi.

Ardı Səh. 5

# İlham Əliyev: Heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın!

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar*

Əvvəli Səh. 4

Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Demək olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər.

Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı







olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər.

Onu da bildirməliyəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək yüklər daşınmağa başlamışdır. Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişdik, böyük iradə göstərmişdik. Eyni zamanda, maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolları bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Çünki biz etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti var.

Bu, eyni zamanda, ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın. Çünki danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdi. Danışıqlarda razılığa gəlməməsinin əsas səbəbi də məhz bunda idi. Əfsuslar olsun ki, Ermənistanın və onun bəzi xarici havadarlarının mövqeyi ondan ibarət idi ki, beş rayon Azərbaycana qaytarılsın, Azərbaycan bununla kifayətlənsin və Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilsin, Kəlbəcər və Laçın rayonları Ermənistanın əbədi nəzarəti altında qalsın. Mən bu təklifi rədd etdim.

Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək, bax, buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq bu istiqamətdən hərəkət edərək biz strateji əməliyyatlarımızı aparmışdıq. Eyni zamanda, əks tərəfdən - Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat apara bilmişik. Laçın rayonunun, bax, bu cənub hissəsi hərbi əməliyyat nəticəsində azad edilmişdir. Biz döyüş meydanında düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik.




Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. Halbuki sovet vaxtında bu bağlantı yox idi. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, böyük faciə idi. Hər bir rayonun itirilməsi böyük faciə idi. İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb.

**Ardı Səh. 6**

# <u>İlham Əliyev:</u> Heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın!

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar*

Əvvəli Səh. 5

O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada - Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

XXX

Sonra Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyasının açılışında iştirak etdi.

Erməni qəsbkarlar işğal dövründə xislətlərinə uyğun olaraq digər yerlərdəki kimi, bu stansiyanı da darmadağın ediblər. Dövlətimizin başçısının tapşırığı ilə qısa müddət ərzində istismara verilən bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır. Prezident İlham Əliyev "Güləbird" Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, "Güləbird" Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

XXX

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə gəldilər.











Erməni qəsbkarlar işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğunda da ekoloji terror törədiblər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıb. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulub.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər. Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Bəsitçaya balıq buraxdılar.

Prezident İlham Əliyev: Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi.

Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. Ancaq hər halda öz borcumuzu yerinə yetirdik.

Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilmişdir.

XXX

Sonra dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndinə yola düşdülər.

Prezident İlham Əliyev: Tapşırıq verilib tədbirlər görülsün ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilsin. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evləri də, təbiəti də bərpa edəcəyik. Eyni zamanda, göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Biz qısa müddət ərzində bütün imkanlarımızı, texnikanı, işçi qüvvəsini səfərbər etmişik və 7 min hektarda əkin işləri aparılmışdır. O əkin sahələrinə də baxacağam. Builki mövsümdə təqribən 20-25 min hektarda əkin işləri aparılacaq. Yəni, biz vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Əlbəttə ki, azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlirlər əldə etmişdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək.

Cəbrayıl rayonunun Soltanlı kəndinin ərazisinə gələn Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlər barədə məlumat verildi. Bildirildi ki, hazırda əkin sahələrinin monitorinqi davam etdirilir. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.

## Hikmət Hacıyev: "Kasıb ölkələrin də vaksinlərə çıxışını təmin etmək lazımdır"



Azərbaycan yalnız ölkə daxilində deyil, eyni zamanda qlobal səviyyədə də koronavirusla mübarizəyə mühüm töhfə verir. Bunu Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev "COVİD-19 pandemiyasının və vaksinasiyanın geopolitikası" adlı konfransda deyib.

H.Hacıyev vurğulayıb ki, BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılması təşəbbüsü məhz Prezident İlham Əliyev tərəfindən irəli sürüldü və biz çox şadıq ki, bu təşəbbüs dəstəkləndi. PA rəsmisi bildirib ki, Azərbaycan bu gün də özünün qlobal səviyyədə dəstəyini göstərir. Vaksinasiya haqqında danışan H.Hacıyev vurğulayıb ki, bir sıra ölkələr, o cümlədən Azərbaycan vaksinasiyanı tətbiq etməyə başlayıb: "Azərbaycanda vaksinasiya strategiyası hazırlanıb və ilkin olaraq risk qrupuna daxil olan insanların vaksinasiyası həyata keçirilir. Eyni zamanda, biz dünya təcrübəsini də nəzərə alırıq".

H.Hacıyev bildirib ki, bəzi zəngin ölkələr tələb olunduğundan iki dəfə çox vaksin alırlar: "Təəssüflər olsun ki, bu cür addımlar kasıb ölkələrin vaksin almaq imkanlarını məhdudlaşdırır. Kasıb ölkələrin də vaksinlərə çıxışını təmin etmək lazımdır. Biz bütün BMT ölkələri arasında əməkdaşlığı gücləndirməklə bu bəlaya qalib gələ bilərik".

## Azər Badamov: Azad olunmuş əraziləri cənnətə çevirəcəyik deyilirsə...



"Prezident İlham Əliyev və I Vitse-prezident Mehriban Əliyeva işğaldan azad olunmuş Füzuli, Cəbrayıl, Zəngilan və Laçın rayonlarına səfər edib. Səfər çərçivəsində ölkə başçısı yenidənqurma və bərpa işlərinin tərkib hissəsi olan bəzi layihələrin təməlini atıb, su elektrik stansiyasının açılışını edib və Laçında üç rəngli dövlət bayrağımızı dalğalandırıb". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Azər Badamov deyib.

Deputat bildirib ki, ölkə Başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi onu göstərir ki, bu ərazilərin bərpası və yenidən qurulması prezident İlham Əliyev üçün əsas prioritetdir: "Cənab prezident İlham Əliyevin dediyi söz real həyatda həmişə öz əksini tapır. Neçə illər idi ki, cənab Prezident biz torpaqlarımızın işğalda qalması ilə heç vaxt razı ola bilmərik və bayrağımız Şuşada dalğalandırılacaq deyəndə bəziləri üçün bu, real görünmürdü. Amma sentyabrda başlanmış Vətən müharibəsində əldə etdiyimiz böyük qələbəmiz ölkə başçısının sözünün gücünü göstərdi. Bu gün ölkə başçısı qısa bir zamanda işğaldan azad olunmuş torpaqlarımız yenidən qurularaq bərpa edib böyük qayıdışı həyata keçirəcəyik deyirsə, təbii ki, bu, qısa bir zamanda baş tutacaqdır".

A.Badamov vurğulayıb ki, əgər azad olunmuş əraziləri cənnətə döndərəcəyik deyilirsə, təbii ki, qısa bir zamandan sonra biz bunun şahidi olacağıq: "Səfər çərçivəsində ölkə Başçısı "ağıllı kənd" layihəsinin təməlini qoydu. Yenidən qurulacaq bütün şəhərlər müasir baş planlara əsasən innovasiyalarla icra olunacaqdır. Bu ərazilərin müasir bərpası digər regionlarımızın da gələcəkdə yeni model üzərində qurulacağına yol açacağını düşünürəm. Çünki, dünyanın gələcəyi innovasiyalaşmış həyat üzərində qurulmalıdır. Azərbaycan artıq bu işin icrasına işğaldan azad olunmuş ərazilərindən başlayıb.

***Aysel Məmmədova***

## Ermənistan ordusunda fərarilik tüğyan edir

Son vaxtlar Ermənistan ordusunun hərbi qulluqçuları arasında hərbi xidmətdən imtina etmə və hərbi hissəni özbaşına tərk etmə halları çoxalıb. "İki sahil" erməni mediasına istinadla xəbər verir ki, Ermənistan ordusunun hərbi hissələrindən birində eyni gündə tabor komandiri və bölük komandiri də daxil olmaqla bir neçə hərbi qulluqçu fərarilik edib. Hərbi polis tərəfindən əsgərlərin bəziləri xidmət yerinə qaytarılsa da, hərbi qulluqçular Darnik Saroyan və Henriki Tatevosyanın axtarışları davam edir. Komandanlıq kütləvi fərarilik faktını ört-basdır etmək məqsədilə hüquq-mühafizə orqanlarına məlumat vermir.

## Ceyhun Bayramov ABŞ-ın Azərbaycandakı səfiri ilə görüşüb



Fevralın 15-də xarici işlər naziri Ceyhun Bayramovun Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Örl Litzenberqer ilə görüşü keçirilib. Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə tərəflər bölgədəki cari vəziyyəti, o cümlədən üçtərəfli bəyanatın icrası ilə bağlı məsələləri müzakirə ediblər.

İkitərəfli əməkdaşlıq gündəliyi üzrə ətraflı fikir mübadiləsi aparılıb, Azərbaycan-ABŞ münasibətlərinin daha da irəlilədilməsi məsələsi müzakirə olunub. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Qazimiz protezlə təmin olundu



Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Vətən müharibəsində yaralanmış, reabilitasiya vasitələrinə ehtiyacı olan qazilərimizin yüksək texnologiyalı protezlərlə təminatını həyata keçirir.

Nazirlikdən verilən məlumata görə, bu protezlər Nazirliyin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində dünyanın məşhur protez istehsalçıları ilə əməkdaşlıq şəraitində qurulan sexdə hazırlanır. Həmin reabilitasiya vasitələri yüksək funksionallıq dərəcəsinə malikdir. Elektron oynaq əsasında hərəkətin tam, daha dəqiq tənzimlənməsinə imkan verir, sabit, təhlükəsiz və inamlı hərəkəti təmin edir.

Təqdim edilən videoçarxda qələbəmizin qəhrəmanlarından olan Əliyev Rəşad Amin oğlunun bu günlərdə yüksək texnologiyalı protezlərlə təmin edilməsi prosesi əksini tapıb. Döyüşlərdə ağır yaralanaraq ayağını itirən Rəşad bu reabilitasiya vasitəsi ilə artıq sərbəst şəkildə addımlamaq, rahat hərəkət imkanına malikdir.

## Ermənistan Müdafiə Nazirliyinin binası qarşısında etiraz aksiyası keçirilib



Ermənistan Müdafiə Nazirliyinin binası qarşısında müharibə iştirakçıları etiraz aksiyası keçiriblər. "Armenpress"in yaydığı məlumata görə, onlar nəzərdə tutulan maliyyə yardımının verilməsi tələbi ilə nümayişə çıxıblar.

"Döyüşlərdən 3 ay keçməsinə baxmayaraq, bizə hərbi bilet, müharibə iştirakçısı olduğumuza dair sənəd vermirlər. Öyrənmişik ki, bizə əməkhaqqı da verilməlidir. Ancaq onu da verməyiblər", - aksiya iştirakçılarından biri deyib. Bildirilib ki, yanvar və fevral aylarında da Müdafiə Nazirliyi binasının qarşısında hərbçilər bir neçə aksiya keçirib. Lakin problem hələ də öz həllini tapmayıb.

## İqor Korotçenko: Qarabağ müharibəsində Qələbə Prezident İlham Əliyevin siyasətinin zəfəridir

**2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilmiş, görüşdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan iştirak etmişdilər. O vaxtdan keçən bir il xalqımızın həyatında ən əlamətdar illərdən biri oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz torpaqlarımızı erməni işğalından azad etdi.**

Rusiyalı jurnalist və hərbi ekspert, "Natsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko qeyd edib ki, Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında tarixi debatlardan keçən bir il ərzində Ermənistan-Azərbaycan münaqişəsinin həllində hər şey köklü surətdə dəyişib.

"Bir il əvvəl Münxen Təhlükəsizlik Konfransında Azərbaycan



Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan siyasi opponentlər kimi çıxış edirdilərsə, hər kəs öz ölkəsinin mövqeyini təmsil edirdisə, 44 günlük müharibənin nəticələri isə hər şeyi yerbəyer etdi - Azərbaycan və Prezident İlham Əliyev hərbi və siyasi qələbə qazandılar, Paşinyan və Ermənistan isə təslim oldular. Azərbaycan beynəlxalq hüquq prinsiplərinə, BMT Nizamnaməsinin baza prinsiplərinə əsaslanaraq, ölkənin, ordunun, xalqın imkanlarına arxalanaraq bu məsələni həll etdi. İndi hər şey öz yerini aldı", - deyə o bildirib. Ekspert xatırladıb ki, hələ Münxen konfransından əvvəl Azərbaycan Prezidenti İlham Əliyev "Valday" beynəlxalq diskussiya klubunun XVI illik iclasının plenar sessiyasında çıxış edərkən Ermənistanın baş nazirinin populist fikirlərinə cavab olaraq bildirdi: "Qarabağ Azərbaycandır və nida işarəsi".

"İlham Əliyev bir Prezident və Ali Baş Komandan kimi təsdiq edib ki, Qarabağ Azərbaycandır. Bugünkü reallıq məhz belədir. 44 günlük müharibənin nəticələri bütün dünyada Azərbaycana olan hörmət və nüfuzu əhəmiyyətli dərəcədə artırdı, çünki ölkənin öz ərazi bütövlüyünü bərpa etməsi müasir tarixdə misli görünməmiş bir haldır. Biz ATƏT-in Minsk qrupunun necə işlədiyini gördük, biz bu qanlı və uzun sürən münaqişənin siyasi həllinə dair müxtəlif formatlı təklifləri gördük. Biz erməni siyasətçilərinin kobudluğunu gördük, Paşinyanın hakimiyyətə gəlişindən sonra biz görünməmiş dərəcədə həyasızlıq, kobudluq və özünə arxayınlıq müşahidə etdik, Paşinyanın Şuşa şəhərində separatçı rejimin andiçmə mərasimindəki təhqiramiz rəqslərini, yeni müharibə baş verərsə, Azərbaycanın öz ərazilərinin daha xeyli hissəsini itirəcəyi barədə bəyanatını xatırlayırıq. Ermənistanın Azərbaycanın əsas obyektlərinə preventiv zərbələr endirmək hüququna malik olduğunu deyən müdafiə naziri Tonoyanın da sözlərini xatırlayırıq. Bütün bunlar Azərbaycanın həyata keçirdiyi "Dəmir yumruq" əks-hücum əməliyyatı nəticəsində dağıldı", - deyə İ.Korotçenko bildirib.

Politoloqun vurğuladığına görə, Azərbaycan bu yumruqla erməni təcavüzkarına sarsıdıcı zərbə endirdi və Ermənistan çox sayda ölü və yaralı itirərək təslim olmaq məcburiyyətində qaldı.

"Erməni əsgəri döyüş ruhunu itirdi. On min erməni fərarisi - ay yarım ərzində bu sayda fərari heç bir müharibədə görünməmişdi. Biz Azərbaycan Prezidenti və Ali Baş Komandan İlham Əliyevin siyasətinin zəfərini, Azərbaycan generallarının hərb sənətinin zəfərini görürük. Azərbaycanın ikinci Qarabağ müharibəsində qələbəsi tarixən əvvəlcədən müəyyən edilmişdi və qaçılmaz idi. Prezident İlham Əliyevin "Valday" Forumunda dediyi "Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri yalnız peyğəmbərcəsinə deyilmiş söz deyildi, bu, dediyinə cavabdeh olan, buna əməli işlərdə nail olan liderin sözləri idi", - deyə İqor Korotçenko əlavə edib.



# İlham Əliyevin Münhen ipponunun və Nikol Paşinyanın kürəyinin yerə vurulmasının ildönümü

## Prezident İlham Əliyev sözünə sahib insandır. Onun sözləri ilə əməlləri heç vaxt bir-birinə zidd olmayıb və ən yeni tarix bunu göstərdi!

**Artıq 56-cı Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında tarixi debatların keçirildiyi gündən bir il ötdü. O vaxt bu hadisə barədə AZƏRTAC "İlham Əliyevin Münhen ipponu və Paşinyanın gözlənilən məğlubiyyəti" sərlövhəli məqalədə bütün dünyaya xəbər vermişdi. Həmin vaxtdan artıq bir il keçib və bu vaxt ərzində əlamətdar hadisələrə, xüsusən də ötən ilin 44 günlük "qızmar" payızında baş verən hadisələrə baxmayaraq, AZƏRTAC-ın həmin məqaləsi nəinki öz aktuallığını itirməyib, epoxal hadisələr fonunda daha da böyük məna kəsb edib.**

Bu gün, Münhen konfransının səhnəsində həmin tarixi zəka savaşına müraciət edərkən və sonradan, məhz həmin ilin iyulunda və daha sonra payızında baş verənləri yada salarkən həmin təkbətək döyüşü yenidən dəyərləndirməyə, ona yeni mövqedən baxmağa başlayırsan. Əslində, bu, qarşıdakı böyük Vətən müharibəsində Böyük Qələbənin müjdəçisi idi. O vaxt həmin debatları zalda əyləşərək və ya birbaşa efirdə müşahidə edərək izləyənlərdən kimin ağlına gələrdi ki, bir ildən sonra bu intellektual təlim məşqini bütün dünya başqa kontekstdə xatırlayacaq! O vaxt kim deyə bilərdi ki, düz bir ildən sonra həmin lider, sakit və eyni zamanda, tamamilə əminliklə tarixi mənbələrə istinad edərək, auditoriyaya Kürəkçay müqaviləsi, Qafqaz bürosunun iclası və s. barədə söhbət açacaq, özünün növbəti səfərini artıq azad edilmiş Azərbaycan torpaqlarına edəcək və orada başlanan bərpa işlərinə şəxsən özü nəzarət edəcək.

Bu sətirlərin müəllifi və eyni zamanda, bir il bundan əvvəlki məqalənin müəllifi bunu yuxusunda belə təsvir edə bilməzdi! Xeyr, əlbəttə ki, Qələbə Gününün gec və ya tez gələcəyinə mənim zərrə qədər şübhəm yox idi. Amma bunun elə həmin il baş verəcəyini, zənnimcə, az adam öncədən görə bilərdi.

Bax, burada bunları qeyd etmək istəyirsən. Bəli, bunu qabaqcadan demək o qədər də asan deyildi, lakin cənab Paşinyan keçən ilin payızında baş verənlərin qarşısını almaq üçün lazım olan hər şeyi etmişdimi? Müharibənin qarşısını almaq millətin hər bir məsuliyyətli rəhbərinin vəzifəsidir. Bunu qüvvələrin bərabər olmadığı halda etmək xüsusilə vacibdir. Millətin lideri necə məsuliyyətsiz və fırıldaqçı olmalıdır ki, nəinki qalib gəlmək, hətta heçheçə nail olmaq üçün öz ölkəsinin heç bir şansı olmadığı müharibənin qarşısını almaq üçün bütün səylərini cəmləşdirmək əvəzinə, bütün hərəkətləri və ritorikanı diametral şəkildə əks hədəfə - müharibənin təhrikinə yönəltsin!

Bax burada, Münhen debatlarından əvvəl baş verən hadisələri xatırlatmaq istərdim.

2019-cu il martın 30-da Ermənistanın ovaxtkı müdafiə naziri David Tonoyan Nyu-Yorkda erməni icması ilə görüşündə gözlənilmədən bəyan etdi ki, erməni tərəfi Madrid prinsipləri əsasında yeddi rayonun Azərbaycana qaytarılmasının "Arsax"ın müdafiə qabiliyyətini sarsıdacağını "dərk edib" (!) və bu səbəbdən "ərazilərin sülhə dəyişdirilməsi" formulu artıq keçmişdə qalıb, onun əvəzinə isə "yeni müharibə - yeni ərazilər" konsepsiyası gəlir. Tonoyan bunu Ermənistanın ölkədə belə adlandırılan "təhlükəsizlik kəməri"nin genişləndirilməsi niyyətində olması ilə izah edib. Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanın Vyanadakı görüşü başa çatdıqdan demək olar ki, bir neçə saat sonra səslənən bu bəyanat Bakıda heyrət doğurdu və güman edirik ki, ATƏT-in Minsk qrupunun həmsədrlərini də az təəccübləndirmədi. Həmsədrlər onların illər boyu üzərində çalışdıqları məsələni Yerevanda belə asanlıqla və sürətlə heçə endirəcəklərinə hazır deyildilər. Bu, birinci işarə idi, lakin o vaxt bu bəyanatı belə qiymətləndirməyi qərara aldılar ki, onun səsləndirən siyasətdən xəbəri olmayan hərbçidir və ola bilsin, bu, Paşinyan komandasının daxilində nəyisə bir anlaşılmazlıqdır.

Şübhələr 40 gündən sonra dağılmağa başladı. Ermənistanın baş naziri Nikol Paşinyan 2019-cu il mayın 9-da hər bir azərbaycanlı üçün müqəddəs olan Cıdır düzündə sərxoş vəziyyətdə rəqs etməyə başlayıb. Qonşu dövlətin liderinin işğal edilmiş ərazilərdə, özü də azərbaycanlıların ruhu üçün ən müqəddəs yerdə olması təhqiredicidir. Marionet xuntanın qondarma "parlamenti"nin Xankəndidən Şuşaya köçürülməsinin onun tərəfindən elan edilməsi də rəqibinə daha ağrıdıcı zərbə endirmək, onu ruhdan salmaq, depressiyaya düşməyə məcbur etmək məqsədi daşıyırdı. Bununla da, erməni siyasi texnoloqların fikrincə, yekunda Azərbaycanın müqavimət göstərmək iradəsi sınacaq və Qarabağ itkisinin qaçılmazlığı ilə razılaşmağa məcbur olacaqdı.

Etiraf edirik ki, bütün bu küçə tamaşasında biz azərbaycanlılar üçün yaxşı olanı, yumşaq desək, azdır. Paşinyanın və onun komandasının öz üzərilərinə götürdükləri bizim iradəmizin sındırılması məsələsi onların güman etdikləri kimi asan məsələ olmadı. Paşinyanın "hesablamaları" öz yerində, daha yaxşı olardı ki, biz özümüzdən danışaq: bu sərxoş rəqs kefi həmin anda bizim üçün ciddi xəbərdarlıq oldu. Paşinyan Əliyevdən "hazırlaşmaq üçün" "əlavə vaxt" istəmişdi, beləliklə o, Azərbaycan liderinə bir qədər ümid vermişdi. Hansı "əlavə vaxtdan" söhbət gedə bilər ki, Paşinyan özünün bu sərxoş rəqsləri və "parlamentin" Şuşaya köçürülməsi kimi planları ilə tamamilə əksini - nəinki münaqişənin həlli istiqamətində irəliləməyə hazır olmamasını, hətta onun nizamlanmasından daha çox uzaqlaşdırmaq niyyətində olduğunu nümayiş etdirirdi. Belə təhqiramiz hərəkətlərlə hansı "kompromisdən" və "xoş məramdan" danışmaq olar? Bir sözlə, həmin gün Azərbaycan ictimaiyyətini, yumşaq desək, daha çox ehtiyatlandırdı.

Həmin "yallı" rəqsindən üç ay sonra, 2019-cu il avqustun 5-də işğal olunmuş Xankəndidə yedinci Panermeni oyunlarının açılışında çıxış edən Nikol Paşinyan birdən-birə "Arsax Ermənistandır və nöqtə" deməklə hamını daha çox təəccübləndirdi. Ermənistan lideri həmin anda, əslində, danışıqlar prosesinin tabutuna birinci mıxı vurmuş oldu. Doğrudan da əgər Ermənistanda Qarabağın bu dövlətin "bir hissəsi" olduğunu qərara alıblarsa, onda hansı danışıqlardan söhbət gedə bilər, axı danışıqların mövzusu yoxa çıxmış olur.

Sözügedən tabuta növbəti mıx keçən il iyul ayında vuruldu: o vaxt Ermənistanda tamamilə mənasız, heç cür izah etmək mümkün olmayan hücum törədildi. Özü də bu hücum Azərbaycanın Tovuz rayonunda, strateji boru kəmərlərinin lap yaxınlığında və Qarabağ münaqişəsindən kifayət qədər uzaq bir ərazidə törədilmişdi. Bunu etmək nəyə lazım idi? Bunun mənası vardı? Azərbaycanın əsəblərinin möhkəmliyini yoxlamaq, yoxsa dünya birliyi öz enerji təhlükəsizliyi üçün yaranan təhdidə necə reaksiya verəcəyini testləşdirmək istəyirdilər? Həmin lokal qarşıdurmada hərbi baxımdan darmadağın olandan sonra yenidən Azərbaycanın dinc əhalisinə qarşı təxribatlar törətmək məqsədilə Azərbaycana kəşfiyyat-təxribat qrupu göndərmək nəyə lazım idi?

Ermənistan rəhbərliyi böyük siyasət üçün yaşlılara heç yaraşmayan əməlləri ilə sülh prosesini pozmaq və müharibəni labüd etmək üçün əlindən gələni əsirgəmədi.

Digər tərəfdən Azərbaycan Prezidenti danışıqlar prosesini xilas etmək üçün nə mümkündürsə edirdi. Axı 44 günlük müharibədən sonra tərəflərin əldə etdiyi nəticələrə bu mənasız insan tələfatı, əzab-əziyyət, dağıntılar olmadan da nail olmaq mümkün idi. Prezident Əliyev danışıqlar prosesini xilas etməyə çalışarkən məhz bunu əsas götürürdü! 2019-cu il oktyabrın 3-də Prezident Əliyev "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI iclasında çıxış edərək Ermənistan rəhbərliyini ağlını başına yığmağa və Qarabağın ilhaq edilməsi kursundan imtina etməyə çağırdı, xatırlatdı ki, "Qarabağ Azərbaycandır! Və nida işarəsi!" Sonralar bu cümlə şanlı Azərbaycan Ordusunun zəfər yürüşünün devizi, onun şifahi loqosu oldu. Hər bir yaşayış məntəqəsinin, hər bir kəndin, hər bir şəhərin, hər bir təpənin və yüksəkliyin azad edilməsi bu fraza ilə qeyd olunurdu! Azərbaycan döyüşçüləri şüşə kimi hamar Şuşa qalasına dırmaşarkən onların qəlbləri bu fraza ilə döyünürdü. Şəhidlərimiz son anda bu sözləri deyərək gözlərini yumurdular.

Nikol Paşinyan 2019-cu il avqustun əvvəlində qulaqlarını sallamış Dağlıq Qarabağ sakinləri qarşısında çıxış edərkən düşünməli idi. İndi hanı sənin dediyin "nöqtə", Paşinyan? Hanı?

"Valday" klubunu iclasından bir həftə sonra, 2019-cu il oktyabrın 11-də Aşqabadda MDB üzvləri olan ölkələrin dövlət başçıları şurasının iclasında çıxış edən Prezident İlham Əliyev Ermənistan rəhbərliyinin təhlükəli hərəkətlərini - nasist kollaborasionistlərin, o cümlədən Qaregin Njde, Drastamat Dro və başqalarının qəhrəmanlar kimi qələmə verilməsini kəskin tənqid etdi. Ermənistana yenə ismarıc edildi: "Ağlınızı başınıza yığın!", MDB ölkələrinin liderlərinə xəbərdarlıq edildi ki, Birliyin üzvü olan dövlətlərdən biri uçuruma yuvarlanır.

Nəhayət, düz bir il bundan əvvəl Münhen Təhlükəsizlik Konfransında iki lider arasında təkbətək savaş bütün bu dramın finalı oldu. İdmançıların dilində desək, həmin savaş parlaq ippon fəndi və Paşinyanın bütün dünyanın gözü qarşısında kürəyi üstə yıxılması ilə nəticələndi! Bu həqiqətən final, Ermənistanın ağlını başına yığması üçün Azərbaycanın ona verdiyi sonuncu şans idi.

Ermənilər bu şansdan istifadə etmədilər. Sonra nələr baş verdiyini isə bütün dünya əvvəlcə 2020-ci ilin iyul ayında, daha sonra "qızmar" payız fəslində gərgin vəziyyətdə müşahidə etdi.

Prezident İlham Əliyev sözünə sahib insandır. Onun sözləri ilə əməlləri heç vaxt bir-birinə zidd olmayıb və ən yeni tarix bunu göstərdi! O, Valdayda "Qarabağ Azərbaycandır! Və nida işarəsi!" deyəndə Ermənistanda çoxları gülürdülər. Amma atalar yaxşı deyib: Söz sonuncu gülənindir!

Bu gün Azərbaycan bayrağı Şuşa üzərində dalğalananda biz gülmürük, çünki bizim xalqımız heç vaxt başqasının kədərinə sevinməyib. Bu gün bizim gözlərimiz yaşla doludur. Bu, çoxdan gözlənilən qələbəyə görə sevinc göz yaşları, qəhrəman xalqımıza və bizim liderimizə görə qürur göz yaşlarıdır, bizim ölməz qəhrəmanlarımız onun komandanlığı altında əllərindən gələni ediblər ki, bizim nəslimiz bu günü görsün!

Sağ olun, qorxubilməz igidlər! Sağ olun, bizim əziz Prezidentimiz!

***Vüqar Seyidov***

# Vüqar Rəhimzadə: "Prezidentin Münxen bəyanatları Vətən müharibəsində Zəfərimizlə təsdiqləndi"

**"44 günlük İkinci Qarabağ müharibəsində tarixi Qələbəmiz perspektivlərlə yanaşı, Azərbaycanın bu Zəfərini şərtləndirən amillərə, ən əsası diplomatik müstəvidə qazandığı uğurlara nəzər salmağı da bir zərurətə çevirir. Vətən müharibəsində tarixi Zəfərimiz 30 ilə yaxın müddətdə münaqişənin hərbi, savaşın davam etdiyi dövrdə isə diplomatik müstəvidə həllinin mümkünsüzlüyünü bildirən Ermənistan hakimiyyətinə əsl həqiqəti çatdırdı.**



Bir daha işğalçıya və ona havadarlıq edənlərə sübut edildi ki, saxta tarix yazıb yalanları həqiqət kimi qəbul etdirməyə çalışmaq, ən əsası beynəlxalq hüququn prinsiplərini arxa plana keçirib zamanın hakimliyini, tarixin yaddaşını inkar etmək heç bir dövlətə uğur gətirə bilməz. Necə ki, 44 günlük İkinci Qarabağ müharibəsi bunu bir daha təsdiqlədi. Ermənistan silahlı qüvvələri rəşadətli ordumuz qarşısında diz çökdü, Nikol Paşinyan ölkəsinin kapitulyasiya aktına imza atdı, Azərbaycanın siyasi Qələbəsini təsdiqlədi". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə diqqəti ötən il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə səsləndirilən fikirlərə və paralel olaraq ötən dövrdə münaqişənin həlli istiqamətində atılan addımlara yönələrək bildirib ki, dövlətimizin başçısı daim ən yüksək tribunalardan Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırıb: "Möhtərəm Prezidentimizin 2019-cu ildə Rusiyanın Soçi şəhərində dünyanın məşhur "beyin mərkəzləri"ndən biri olan "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı işğalçı dövlətə sarsıdıcı diplomatik zərbə oldu. Diqqəti BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin işğal etdiyi Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə yönəldən Prezident İlham Əliyev Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu əsaslı şəkildə tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. Həqiqətlərimizin təbliği, münaqişənin əsl mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması üçün əsas tribunalardan biri də ənənəvi keçirilən Münxen Təhlükəsizlik Konfransıdır ki, Azərbaycan bu tribunadan da maksimum istifadə edərək erməni yalanların ifşa etmiş, hər zaman haqqa, ədalətə çağırış etmişdir".

"Möhtərəm Prezidentimiz İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə ötən il Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı keçirilən panel müzakirələrdə də dövlətimizin başçısı bir daha qarşı tərəfə sözün əsl mənasında tarix və hüquq dərsi keçdi" söyləyən baş redaktor bildirib ki, dövlətimizin başçısı "Biz həqiqətləri söyləməliyik" fikrinin ardınca tarixə nəzər salıb Dağlıq Qarabağın Azərbaycana məxsus olmasını faktlar əsasında bir daha beynəlxalq auditoriyaya çatdırdığı halda Ermənistanın baş naziri tarixlə bağlı mücərrəd fikirləri ilə özünü gülünc vəziyyətinə salmış, yeganə amalı, məqsədi iştirakçıların diqqətini yayındırmaq və çaşqınlıq yaratmaq olmuşdur: "Amma Nikol Paşinyan unutdu ki, bu təlxəkliyinin ömrü uzun ola bilməz. İşğalçı ölkənin baş naziri beynəlxalq hüququ, tarixi nə qədər inkar etməyə çalışsa da, bunun uzunmüddətli olması mümkün deyil. Beynəlxalq münasibətlərdə güc və beynəlxalq hüquq amillərinin əsas yer tutduğunu önə çəkən Azərbaycan gücləndi, bütün sahələrdə qazandığı təcrübəni birləşdirdi, Ermənistana layiq olduğu yeri göstərdi. 30 ilə yaxın müddətdə münaqişənin hərbi yolla həllinin mümkünsüzlüyünü bildirən işğalçı Ermənistan danışıqlar prosesini uzatmaqla əlavə vaxt qazanmağın açı nəticəsini 44 günlük İkinci Qarabağ müharibəsində gördü. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində aparılan müzakirələrdə təlxəkliyi ilə yadda qalan Ermənistanın baş naziri Nikol Paşinyan dünya ictimaiyyətinin 25-30 ildə Azərbaycan və Ermənistan liderlərindən eyni sözləri təkrar eşitməsindən nə zamansa yorulacağını bildirəndə özünü necə gülüş obyektinə çevirdiyindən xəbərsiz idi. Bir daha işğalçıya xatırladıldı ki, beynəlxalq hüquq hər bir məsələnin həllində əsasdır. Başına çəkilən sığallardan ərköyünləşən, həqiqətləri eşitməkdən utanmaq əvəzinə, beynəlxalq ictimaiyyətin adından özünü yorğun hiss edən Paşinyan Azərbaycanın apardığı Vətən müharibəsinin təcavüzkara verdiyi tarixi dərsi ömür boyu unutmamaqla yanaşı, əsl yorğunluğunu biabırçı məğlubiyyətləri ilə yaşadı".

Baş redaktor bildirib ki, artıq nəinki Münxen Təhlükəsizlik Konfransındakı müzakirələr, ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub. 44 günlük İkinci Qarabağ müharibəsi həm qeyd olunan konfransda Azərbaycan liderinin səsləndirdiyi tarixi həqiqətlərin, Azərbaycanın haqlı mövqeyinin, həm də bütövlükdə bu illər ərzində diplomatik müstəvidə qazanılan uğurlarımızın təqdimatı oldu: "Məhz bu illər ərzində münaqişənin həlli ilə bağlı yaradılan möhkəm hüquqi baza döyüş meydanında Qələbəmizi şərtləndirdi. Dövlətimizin başçısı İlham Əliyev ən yüksək tribunalardan bəyan edirdi ki, sülh danışıqları səmərə verməyəcəyi təqdirdə hərb variantına üstünlük veriləcəyi şəksizdir. Azərbaycan bir qarış torpağını belə düşmənə verməyəcək. Bu gün işğaldan azad edilmiş bütün torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanması haqqın, ədalətin Zəfərinin əyani təsdiqidir".

# Ərdoğandan Baydenə çağırış: Sən də bunları yaxşı tanı



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın yeni prezidenti Cozef Baydenə müraciət edib. Türkiyə lideri, yeni seçilən amerikalı həmkarını terrorçularla bağlı obyektiv mövqe tutmağa çağırıb. "Separatçı terror təşkilatı 1984-cü ildən bəri 30 min mülki vətəndaşımızı qətlə yetirib. Bunların içində ana bətnindəki uşaqdan yaşlıyadək, fəhlədən müəllimədək, çobandan mollayadək - cəmiyyətin hər təbəqəsindən insanımız var. Dünyaya deyirik ki, gəlin bu alçaqların gerçək üzünü yaxşı görün. Cənab Bayden, sən də bunları yaxşı tanı. Amma bunları tanıyarkən FETÖ-nü də unutma", - Ərdoğan vurğulayıb.

# Rusiya və Ermənistan XİN başçıları Qarabağı müzakirə edəcək



Rusiya xarici işlər naziri Sergey Lavrov və ermənistanlı həmkarı Ara Ayvazyan Qarabağla bağlı məsələləri müzakirə edəcəklər. Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, fevralın 17-də Moskvada nazirlərin görüşü olacaq."Görüşdə bölgədə humanitar yardım göstərilməsinə, infrastrukturun bərpasına və nəqliyyat kommunikasiyalarının açılmasına və Azərbaycan-Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli bəyanatlarının bəndlərinin həyata keçirilməsinə xüsusi diqqət yetiriləcək", - Nazirlikdən vurğulanıb.

# Qarabağ bölgəsi turizm mərkəzinə çevriləcək



Azərbaycanın dinamik inkişafı, ölkəmizdəki əsaslı dəyişikliklər son 17 ildə ölkəmizin qürur doğuran səhifələrini təşkil edir. 2003-cü ildə Azərbaycanı qüdrətli dövlətə çevirəcəyini bəyan edən Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasət nəticəsində respublikamız siyasi-iqtisadi və mədəni mərkəz, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi tanınıb. Bu illər ərzində Azərbaycanda bütün sahələr yenilənib, müasirləşib. Ən başlıcası, insanların həyat səviyyəsi dəyişib, əhalinin rifahı daha da yaxşılaşıb, həyatımızın bütün sahələri yeni, modern əsaslarla qurulub.

İnamla vurğulayaq ki, Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasət Azərbaycanı regionun davamlı inkişaf edən, məqsədlərinə doğru inamla irəliləyən dövlətinə çevirib. Dövlət başçısının rəhbərliyi altında ölkədə yeni sosial infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin istifadəyə verilməsi, yeni yolların, su, qaz, elektrik, rabitə xətlərinin çəkilişi də uğurlarımızın göstəricisidir. Dövlət proqramları ölkədə makroiqtisadi sabitliyin təmin olunması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yeni müəssisə və iş yerlərinin yaradılması, əhalinin rifah halının daha da yaxşılaşdırılması kimi prioritetləri özündə ehtiva edir.

Görülən işlərlə bərabər olaraq dövlət başçısı tərəfindən yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində də böyük addımlar atılıb. Azərbaycanda magistral yollar müasir formada yenidən qurulub. Bir çox yaşayış məntəqəsini birləşdirən kəndlərin, yaşayış məntəqələrinin yol infrastrukturun yaxşılaşdırılması ilə bağlı dövlət başçısı son illər ərzində xeyli sayda sərəncamlar imzalayıb ki, bu da əhalinin rahatlığına xidmət edir. Bütün həyata keçirilən bu layihələr vətəndaşların rahat gediş-gəlişinin təmin olunması, yük və sərnişindaşımanın rahatlaşması ilə bərabər bölgələrdə turizmin inkişafına səbəb oldu. Koronavirus pandemiyasına qədər dünya qapılarının bir-birinin üzünə açıq olduğu zamanda ölkəmizə gələn turistlərin sayının gündən-günə artmasında ölkəmizin füsunkarlığı, dünya standartlarına cavab verən beşulduzlu otel və istirahət mərkəzlərinin istifadəyə verilməsi və s. ilə yanaşı, rahat gediş-gəlişin təminatı da rol oynamış oldu. Beynəlxalq standartlara cavab verən bugünkü magistral yollar, dəmir yolları ölkəmizin simasını başdan-başa dəyişdirmişdir. Respublika iqtisadiyyatının qüdrətini artıran bu yollar indi Avropa ölkələrinin yollarından heç də geri qalmır. Fərəhlidir ki, bu istiqamətdə işlərinin həcmi ilbəil artır.

Azərbaycanın ən gözəl məkanları olan Qubanın Xınalıq kəndi, İsmayıllının Lahıc qəsəbəsi, cənub mirvarisi Lənkəran, Qusarın "Şahdağ" Qış-Yay Turizm Kompleksi, Şəkidəki Kiş Alban məbədi, Şəki Xan sarayı, dənizkənarı bulvarı ilə seçilən gözəl təbiətli Astara və onlarla belə bölələrimizin turizmi ilə bağlı yüksək imic formalaşıb.

Son 17 il ərzində dövlət başçısının rəhbərliyi ilə ölkədə həyata keçirilmiş iqtisadi və hərbi potensialın artırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü siyasət, dövlət və ordu quruculuğu və 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu.

Artıq işğaldan azad olan Azərbaycan torpaqlarında yeni həyat canlanır. Bəşər mədəniyyətinə qarşı vəhşilik törədən ermənilər bu ərazilərimizi talan etmiş, abidələrimizi darmadağın edərək viran qoymuşdular. Bütün məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi erməni terrorunun qurbanına çevrilib. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlər üçün istifadə edilib. Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın və Mir Möhsün Nəvvabın ev muzeyləri Şuşanı işğal etmiş erməni vandalları tərəfindən dağıdılıb. Bu məkanların hər biri turistlərin marağına səbəb ola biləcək tarixi yerlərdir.

Azərbaycanın turizm məkanlarının coğrafiyası yaxın zamanlarda daha da genişlənəcək. Öz təbii sərvətləri ilə seçilən torpaqlarımız səfalı və müalicəvi əhəmiyyətə malikdir.

Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə insanın həm xarici həm də daxili xəstəliklərini müalicə etmək mümkündür. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilmişdi. Zəngilan isə meşə ehtiyatı ilə zəngindir. Bütün Avropada ən böyük çinar meşəsi bu rayonda olub. Ermənilər həmin çinarları doğrayaraq xarici ölkələrə satıblar. Hər bir torpağımızda zəngin turizm məkanları mövcuddur. Şuşanın Cıdır düzünün də bu sırada adı var. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində, - pandemiyadan sonra bu sərgilər bərpa ediləcək, - Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni doğrudan da dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək".

***Nəzakət ƏLƏDDDİNQIZI***

# Hər biri bir Azərbaycandır: ŞƏHİDLƏR!



**Vətən Qaladır, əzəmətli, vüqarlı Qala, düşmənin qarşısını kəsən Qala. Bu Qalanı ucalıq mərtəbəsində tutan, ruhunun ucalığı bilən, sal qaya kimi düşmənin qarşısını kəsən igid oğullardır. 2020-ci il sentyabrın 27-də mənfur Ermənistanın təxribatına cavab olaraq Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının "İRƏLİ!" əmri ilə Müzəffər Ordumuzun əsgər və zabitlərimizin igidliyilə 30 illik düşmən işğalında olan torpaqlarımız "Dəmir yumruq"la 44 gün ərzində haqq, ədalət yolunda ərazi bütövlüyümüz bərpa olundu, Qarabağımız özümüzə, sahibinə - Azərbaycanımıza qaytarıldı.**

Azərbaycan Böyük Vətən Müharibəsini Qələb Zəfərilə başa vurdu. Bu Zəfər Qələbəsini isə torpağını, Vətənini sevən, döyüş meydanında vuruşub bu yoldan dönməməyi seçən, azadlığın verilmədiyini, alındığını sübut edən qəhrəman oğullarımız oldu. Vətəni sevməyi sözdə yox, əməldə göstərən torpaq, ana Vətən yolunda canlarından keçdilər-Şəhidlərimiz.

### Prezident İlham Əliyev: "Şəhidlərimizin qanı yerdə qalmayacaq"

Ali Baş Komandanımız, Prezident İlham Əliyev son 17 ildə sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə, özünü dəfələrlə isbatlayıb. Bu reallığı Azərbaycan xalqı görür və bəlkə də bu son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində tariximizin Zəfər Salnaməmiz yazıldı, bütövləşən Azərbaycanımıza - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. 17 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm", - deyərək son 17 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz Qarabağı Azərbaycana qovuşdurdu, haqq və şərəf işimiz olan suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdi və nəhayət, haqqımız olan Qələbə Zəfərimizə nail olduq!

### Azərbaycan Prezidenti İlham Əliyev son 17 ildə öz vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında bir daha sözü ilə əməli bir olan Liderdir!

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Ali Baş Komandanımız, Prezident İlham Əliyev 44 gün davam edən Vətən Müharibəsi müddətində bütün çıxışlarında, müsahibələrində bildirib ki, şəhidlərimizin qanı yerdə qalmayacaq: "Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb". Tarixi qələbəmizi reallaşdıran Ali Baş Komandanımız həm döyüş meydanında, həm də siyasi meydanda bir daha sübut etdi ki, haqq, ədaləti, ərazi bütövlüyümüzü bərpa etdik, Qarabağ Azərbaycandır! reallığını 44 gündə - mümkünsüzü mümkün etdik! Azərbaycan torpaqları qarış-qarış, kənd-kənd işğaldan azad edildi. 44 gün ərzində 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu, Silahlı Qüvvələrimiz Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavəndin böyük hissəsini, Laçın rayonunun kəndlərini işğaldan azad etdi. Uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli şanlı bayrağımız ucaldıldı. 8 noyabr isə Azərbaycan tarixinə Qələbə günü kimi düşdü. Qarabağın tacı, ölkəmizin ən dilbər guşələrindən biri, muğamımızın beşiyi Şuşa mənfur düşmən tapdağından qurtuldu. 10 noyabrda isə dövlət başçımız İlham Əliyev doğma xalqını böyük zəfər xəbəri ilə müjdələdi: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".

Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarımız noyabrın 8-də Qələbə Zəfərini Şəhidlər xiyabanından verməsi də təsadüfi deyildi: "Bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq".

Prezident İlham Əliyev cənabları işğaldan azad olunan torpaqlarımıza tarixi səfərlərində də bildirmişdir ki, bu müharibə igid hərbçilərimizin, şəhidlərimizin qəhrəmanlığı sayəsində düşmən döyüş meydanında məhv edildi, "məğlubedilməz"liyi barədə yalanlar ifşa edildi, Azərbaycan əsgərinin yenilməzliyi sübut olundu: "Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq".

Bəli, Şəhidlər düşmən əlində inləyən elin, obanın bağrı yaralı Qarabağın harayını bizə çatdırdılar. Şəhidlər bizə ölümdən sonra da həyatın var olduğunu, yaşamağın mümkünlüyünü göstərdilər. Onlar Vətən üçün can əsirgəmir, şəhadətləriylə ölümü ucaldıb ölümsüzlüyə, əbədiyyətə qovuşurlar. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Çünki Şəhidlik adi ölüm deyil, Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək deməkdir. "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir" demişlər babalarımız. İstər Mübariz İbrahimovun, istər 2016-cı il Aprel döyüşləri zamanı qorxu duymadan, ürəklərində böyük Vətən sevgisi ilə qəhrəmancasına döyüşüb Şəhid olan Murad Mirzəyev, Raquf Orucov, Samid İmanov, Qabil Orucəliyev və başqaları, istərsə də 44 gün ərzində general, Milli Qəhrəman Polad Həşimovun, 2783 nəfər oğullarımızın torpaq, Vətən yolunda canlarından keçmələri ilə bir daha sübut etdilər ki, Vətənə şərəfdi, şandı, hər biri bir Azərbaycandı şəhidlər! Əgər şəhid anası əlinə silah alıb, "mən də döyüşə hazıram" deyirsə, bu millətin qarşısında kimsə dura bilməz.

Əgər bu gün dövlət başçımız siyasi arenada mənfur erməniləri cavabı ilə çıxılmaz duruma salırsa, deməli, biz Varıq, yenilməzik. Şəhid atası, şəhid anası: "Təki Vətən sağ olsun",-deyərək ətafdakılara təskinlik verirsə, necə qürurlanmayasan, fəxr etməyəsən. Budur, Vətənə olan sonsuz sevginin təcəssümü.

Cənazələrinə üçrəngli bayrağımız bükülmüş şəhidlər doğma Masallıya da gətirilirdi. 44 günlük Vətən müharibəsində 51 ailə şəhidlik zirvəsinə yüksələn igid oğullarımıza ağı demədi - "Şəhidlər ölməz, Vətən bölünməz" deyib qürur duydular, Vətən sağ olsun, söylədilər. İzdihamlı idi qəbiristanlıqlarımız. Şəhid ruhlu idi kəndlərimizin səması... Təsəllimiz vardı. Birinci Qarabağ müharibəsində Dağlıq Qarabağ və yeddi rayonumuz düşmən tərəfindən işğal olunanda təkcə Masallıdan 176 igidimiz şəhid olmuşdu. Bu müharibədə isə düşməni qanına qəltan etmək üçün döyüşlərdə qəhrəmanlıq göstərən Masallılı igidlərimiz 44 günlük Vətən savaşında torpaqlarımızın azadlığına imza atıb 51 şəhid verdilər. Xalqımızın üzünü ağ, başını uca etdi şəhidlər. Bu gün vətənimizin hər yerində olduğu kimi Masallıda da şəhid məzarları insanların ziyarətgahına çevrilib. Hər gün bu məzarlar tər gül-çiçək dəstələrinə bürünür. Orduya çağrılan gənclərin and, inam yeridir şəhid məzarları.

"Vətəndən pay olmaz!", - deyib erməni vandallarının başına od-alov ələyən, bu yolda sinəsini sipər edən vətən oğullarının ruhu hamıya əzizdir. Onlar tarix boyu unudulmayacaqlar. Adları əbədiləşəcək. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə onların ölməzliyini əbədiləşdirmək üçün orden və medallar təsis olunub. Şəhid ailələrinə sonsuz diqqət və qayğı ölkə rəhbərliyi və xalqımız tərəfindən daim olacaqdır. Şəhidlik kimi uca zirvədə qərar tutanlar qəlbimizin ən ali guşəsində əbədi yaşayacaqlar. Onların həyat salnaməsi, ömür yolu gənclərə əsl nümunədir.

Ulu Öndərimiz Heydər Əliyevin bizə əmanəti olan müstəqil Azərbaycan, bu gün öz tarixinin ən şərəfli günlərini yaşayır! Azərbaycan Ordusu, əsgəri Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi altında dünya düzəninin yeni tarixini yazaraq, işğal altında olan Vətən torpaqlarını işğaldan azad etmiş, xalqımızın, ordumuzun zəfər salnaməsini yazmış və yeni reallıq yaratmışdır! Vətən müharibəsinin nəticəsii göstərir ki, Azərbaycan Ordusu 44 gün ərzində Ermənistan üzərində qələbə qazanaraq Üçrəngli bayrağımızı cənnətməkan Qarabağda əbədi dalğalandırılmasını və tarixi ədalət bərpa etmişdir. Bax, indi Ulu Öndərimiz Heydər Əliyevin və bütün şəhidlərimizin ruhu hüzur tapmışdır.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Seyfəddin ƏLİYEV,***
***YAP Masallı rayon təşkilatının sədri***

## Rusiyanın taxıl ixracına kvota tətbiq etməsi Azərbaycana təsir edəcəkmi?



Dünəndən başlayaraq iyulun 30-na qədər Rusiyadan buğda, çovdar, arpa və qarğıdalı da daxil olmaqla, bir sıra dənli bitkilərin icraxına 17,5 milyon tonluq kvota tətbiq ediləcək.

"Report" Azərbaycanın da Rusiyadan taxıl idxal etdiyini nəzərə alaraq bu qərarın ölkəmizə təsir edib-etməyəcəyini araşdırıb. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə kvotanın Azərbaycana ciddi təsisinin olmayacağı qənaətindədir. Onun sözlərinə görə, ötən il Azərbaycan 2 mln ton buğda istehsal edib və buğda ehtiyacının 60 %-ni özü təmin edə bilir.

Aqrar sahə üzrə ekspert, Naxçıvan MR-nın sabiq kənd təsərrüfatı naziri Rəcəb Orucov isə deyib ki, Azərbaycan buğdaya olan ehtiyacının 40 %-ni idxal hesabına ödəsə də, ölkənin keyfiyyətli buğdaya tələbatı daha çoxdur: "Buna görə də tələbat Rusiya, Qazaxıstan və Ukraynadan idxal hesabına tam ödənilir. Rusiyanın kvota tətbiqi bizim istehlak bazarımıza ciddi təsir edə bilər. Taxıl və arpa məhsullarında qiymət artımı qaçılmaz olacaq".

Onun sözlərinə görə, ümumilikdə dünyada buğdaya tələbat artıb: "Odur ki, son aylar əmtəə birjalarında dənli bitkilər (buğda, çovdar, arpa, vələmir və.s) kəskin bahalaşıb. Bunun daxili bazara təsiri olacaq. Bununla yanaşı, son aylarda Çin istehlakını artırıb və dünya bazarlarından daha çox taxıl almağa başlayıb".

Ölkədə taxıl istehsalının artımını stimullaşdırmaq məqsədilə dövlət proqramları qəbul edilib. Lakin biz hələ də özümüzü tamamilə buğda ilə təmin edə bilmirik. Ölkənin taxıl məhsulları ilə tam təminatında potensial imkanları var. Bu imkanlar dəyərləndirilərsə, sahibkarlara stimullaşdırılıcı dəstəklər olarsa, bu zaman müsbət nəticələr əldə etmək mümkündür.

Azərbaycana buğda idxalı daha 3 il ƏDV-dən azad edilib. Bu qərar dövlətin ərzaq təhlükəsizliyi ilə bağlı həyata keçirdiyi mühüm addımlardan biri idi. Taxıl ölkənin ərzaq təhlükəsizliyinin təminatında strateji məhsul sayılır. Bu məhsulun idxalının ƏDV-dən azad edilməsi sahəyə müsbət təsirini göstərəcək", - o əlavə edib. Xatırladaq ki, 2020-ci ildə Azərbaycanın buğda idxalı 2019-ci illə müqayisədə 13 % azalaraq 1 365 min ton təşkil edib.

## ÜTT-yə ilk dəfə xanım rəhbərlik edəcək



Ümumdünya Ticarət Təşkilatının (ÜTT) yeni rəhbəri Nigeriya nümayəndəsi, 66 yaşlı Nqozi Okonco-İveala (Ngozi Okonjo-Iweala) oldu.

"Report" xarici KİV-ə istinadən xəbər verir ki, təşkilatın Baş Şurası tərəfindən namizədliyi təsdiqlənmiş N.Okonco-İveala həmin vəzifədə ilk xanım və ilk Afrika təmsilçisidir. Səlahiyyətləri cari ilin 1 mart tarixindən 2025-ci ilin 31 avqust tarixinədək davam edəcək N.Okonco-İveala 1976-cı ildə Harvard Universitetindən məzun olub və Massaçusets Texnologiya İnstitutunda fəlsəfə doktoru elmi adını alıb. Bir müddət sonra Nigeriya maliyyə naziri və xarici işləri naziri vəzifələrində də ilk xanım olan diplomat 25 il ərzində Dünya Bankında müxtəlif vəzifələrdə çalışıb.

## ABŞ səfiri Türkiyə XİN-ə çağırıldı



ABŞ-ın Ankaradakı səfiri Devid Satterfild Türkiyə Xarici İşlər Nazirliyinə çağırılıb. Türkiyə XİN-in yaydığı məlumatda deyilir ki, buna səbəb İraqın Qara bölgəsində baş verən son olaylardır. "ABŞ-ın Türkiyədəki səfiri Xarici İşlər Nazirliyinə çağırılaraq PKK-ın törətdiyi qətliamla bağlı Dövlət Departamentinin açıqlamasında əksini tapan fikirlərə etiraz sərt şəkildə onun diqqətinə çatdırılıb", nazirlikdən bildirilib.

# Tarixə yazılan 44 gün - Qarabağ Azərbaycandır!



**Sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi və Ermənistanın kapitulyasiyası ilə başa çatdı. 44 gündə 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edildi. Bu, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının diplomatik siyasəti, Güclü Azərbaycan Ordusunun, Rəşadətli qəhrəman və qorxmaz igid əsgər və zabitlərimizin və xalqımızın birliyi, həmrəyliyi nəticəsində əldə olundu.**

Dövlətimizin qətiyyəti, əsgər və zabitlərimizin yüksək vətənpərvərliyi, igidliyi və yenilməzliyi, Prezident-xalq-ordu birliyi sayəsində ədalət bərpa olundu, işğala son qoyuldu, Ermənistan və onun "yenilməz ordusu" döyüş meydanında darmadağın edildi, diz çökdü. 44 gündə Böyük Vətən Müharibəsinin qələbəsindən 3 aydan çox zaman keçməsinə baxmayaraq, xalqımız, o cümlədən tərtərlilər son əsrlərin ən böyük zəfərini, Azərbaycanın yeni tarixinin yazalması sevincini, Ali Baş Komandanımızın rəhbrliyi ilə "Qarabağ Azəbaycandır və QƏLƏBƏ NİDA"-sının qoyulduğu tarixini yaşayır. Bu, qalibin məğlub üzərindəki - Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyev cənablarının diplomatik və qətiyyətli siyasətinin, Güclü Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin tarixinizə yazılan haqqın qələbəsidir. Bu Azərbaycan xalqının qələbəsidir. Bu tarixi qələbə Azərbaycan xalqının öz Liderinin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsinin, bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirməsinin qələbəsidir.

44 gün davam edən Vətən Müharibəsində ilk gündən əldə olunan qələbə müjdəsini də xalqına çatdırmaqdan qürur duyan Ali Baş Komandanımız bildirmişdi: "Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz".

Çünki bizim Prezidentimiz daima xalqı ilə, xalq da öz Prezidenti ilə birlikdədir. Məhz bu birliyin, həmrəyliyin reallığıdır ki, Prezidentimizin ilk gündən çağrışına bütün Azərbaycanın igid oğuları, ehtiyatda olan əsgər və zabitləri səs verərək, müsəlləh əsgər kimi döyüş meydanına yollandılar, torpaqlarımızın azadlığı yolunda canlarından keçərək Şəhidlik zirvəsinə yüksəldilər. Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Azərbaycan düşmən üzərində tarixi zəfər qazandı. Həm də elə bir Zəfər qazandı ki, onilliklər boyu unudulmayacaq. Çünki bu Zəfər Azrbaycan Prezidenti İlham Əliyev 17 illik Prezidentlik fəaliyyətində sürətlə inkişaf etdirdiyi, möhkəmləndirdiyi hərbi gücünün reallığı idi və məhz Güclü Ordunun rəşadətli əsgər və zabitlərimizin igidliyi nəticəsində 44 gün ərzində beynəlxalq təzyiqləri layiqincə dəf etdi. Ən əsası, Ali Baş Komandan bir daha bütün dünyaya sübut etdi ki, heç bir qüvvə Azərbaycanı özünün haqq yolundan döndərə bilməz.

"Vətən müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq",- deyən dövlət başçımız: "Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır", - bildirmişdi.

Belə bir söz var, "düşmənin şərəflisi də hər kəsə qismət olmur". Şərəfsiz düşmənin gücü ordumuza, igid oğlanlarımıza çatmadıqda dinc əhalini hədəf alırdı. Ona görə də Azərbaycan xalqı güclü, qeyrətli xalqdır. Bu millət, bu dövlət uğrunda ölməyə də dəyər. Demək istəyirəm ki, 44 gün davam edən Vətən müharibəsində Tərtər həmişəki kimi düşmən üçün alınmaz qala oldu. Ermənilərin atdığı mərmilərdən, raketlərdən evlərimiz dağıldı, hərbi və mülki şəhidlərimiz oldu, ancaq hamı bir nəfər kimi Vətənin müsəlləh əsgərinə çevrildi. Bu müharibədə Tərtərə Azərbaycanın Stalinqradı, Çanaqqalası oldu. Bilirik ki, Stalinqrad və Çanaqqala uğrunda da ağır döyüşlər aparılmışdı. İstər Birinci Qarabağ savaşında, istərsə də Vətən Müharibəsində Tərtər əhalisi həmin o şərəfsiz işğalçı Ermənistanın atdığı mərmiləri, raketləri heç bir rayon sakinini qorxuda bilmirdi. Hər kəs dövlətimizin, cənab Ali Baş Komandanımızın siyasətini, rəşadətli ordumuzun həyata keçirdiyi uğurlu döyüş əməliyyatlarını, təmizlənmə prosesini yaxından izləyir, dəstəkləyirdi və bu gün də bu yoldadırlar. Tərtər və Bərdədə erməni terrorçularının dinc əhalini hədəf seçməsinə baxmayaraq, həyat öz axarı ilə davam edirdi və bu gün də davam edir. Rayon əhalisi arasında indiyə kimi olmadığı qədər güclü ruh yüksəkliyi var idi, hər kəs dövlətdövlətçilik prinsiplərinə əsaslanaraq öz dəstəyini əsirgəmirdi, "müharibədirsə, evlərimiz də dağılacaq, gündəlik həyat tərzimizdə pozulacaq, Vətən uğrunda şəhidimiz də olacaq, yaralanan əsgər-zabitlərimiz də",-deyirdilər. Biz həmişə olduğu kimi, Vətən Müharibəsində də yumruq kimi birləşmişdik, əli silah tuta bilən hər kəs ön cəbhədə döyüşməyə hazır dayanmışdı. 44 gün davam edən Vətən müharibəsi döyüşlərində Tərtər rayon üzrə 39 hərbçi şəhidimiz olub, 150 nəfərdən çox hərbçi yaralanıb. Ermənilərin rayon ərazisini top və raketlərdən atəşə tutması nəticəsində 17 dinc sakin həyatını itirib, 60-dan çox mülki şəxs yaralanıb. Bu gün torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş və sağlamlığını itirmiş insanlarımızın problemləri hər zaman dövlətimizin diqqət mərkəzində olmuşdur. Prezident, Ali Baş Komandan İlham Əliyev və I vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Cari ilin yanvar ayının 25-də imzalanmış "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam da bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı olduğunun bariz nümunəsidir. Bu Sərəncam çoxsaylı ailələrə mənzil ehtiyaclarını qısa zaman kəsiyində ödəməklə onlara böyük sevinc bəxş edəcək, bununla da şəhid ailələrinin sosial müdafiəsi daha da yaxşılaşacaq.

Sonda onu da vurğlamaq istərdim ki, tərtərlilər həmişə olduğu kimi, bu gün işğaldan azad edilən torpaqlarımızın yenidən bərpa olunmasında Vətənimizin güclənməsi, çiçəklənməsi naminə bundan sonra da daha əzmlə çalışacaq, "Dəmir yumruq" nəticəsində Azərbaycanın yeni tarixini yazan Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının arxasında sıx birləşəcəklər.

***RAMİZ ŞABANOV,***
***YAP Tərtər rayon təşkilatının sədri***

## "44 günlük müharibə gələcəyin etibarlı əllərdə olduğunu bir daha təsdiqlədi"



"Ölkəmizdə həyata keçirilən uğurlu dövlət siyasəti, o cümlədən müvafiq dövlət proqramları çərçivəsində görülən işlər bütün sahələr kimi gənclərin də hərtərəfli inkişafına təkan verib. Elə, müstəqillik illərində, daha doğrusu 1993-cü ilin iyunundan sonra Azərbaycanda yüksək intellektual səviyyəyə malik, eyni zamanda, milli ruhlu gənclərin formalaşması da bilavasitə respublikamızda aparılan dövlət siyasətinin məntiqi nəticəsidir". Bunu SİA-ya Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının üzvü Xanım Qədirova deyib.

O, bildirib ki, Azərbaycanda uğurlu gənclər siyasətinin əsasını xalqımızın Ümummilli Lideri Heydər Əliyev qoyub: "Eyni zamanda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə son 17 ildə eyni ardıcıllıqla davam etdirilib. Onu da deyim ki, gənclərimiz dövlətin, şəxsən Prezident İlham Əliyevin onlara bəslədiyi ümidləri yüksək səviyyədə doğruldurlar. Bu gün ölkəmizin həyatının elə bir sahəsi yoxdur ki, orada gənclərin təşəbbüslərinin, fəallıqlarının şahidi olmayaq. Azərbaycan gəncləri bir tərəfdən müasirliyə, elm və təhsilə böyük maraq göstərir, digər tərəfdən, onlar vətənpərvərdirlər, xalqımızın tarixdən gələn ənənələrinə, milli-mənəvi dəyərlərimizə böyük bağlılıq nümayiş etdirirlər".

Xanım Qədirovanın sözlərinə görə, müstəqillik illərində ölkəmizdə aparılan gənclər siyasətinin ən böyük uğurlarından biri də məhz gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasıdır: "44 günlük Vətən müharibəsi dövründə gənclərimizin ölkəmizin ərazi bütövlüyü uğrunda bir nəfər kimi silaha sarılması, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canından belə keçməyə hazır olması deyilənləri təsdiqləyir. Məlum olduğu kimi Prezident İlham Əliyev Şuşaya səfəri çərçivəsində Cıdır düzündə olarkən gənclərimizin vətənpərvərliyini yüksək dəyərləndirərək vurğulayıb: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib". Bu da bir danılmaz həqiqətdir ki, bu gün Vətəni üçün bütün çətinliklərə sinə gərməyi bacaran, torpaqlarımız düşmənin işğalından azad edən müasir Azərbaycan gəncliyi Ulu Öndər Heydər Əliyev məktəbinin, Prezident İlham Əliyev idarəçiliyinin yetirməsidir".

"Bir sözlə, 44 günlük Vətən müharibəsi Azərbaycanın gələcəyinin etibarlı əllərdə olduğunu bir daha təsdiqlədi" deyə, X.Qədirova sonda bildirib.

***Ceyhun Rasimoğlu***

# YAP Zərdab rayon təşkilatının hesabat yığıncağı keçirilib

**Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının 2020-ci ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş videokonfrans formatında hesabat yığıncağı keçirilib. Hesabat yığıncağında Yeni Azərbaycan Partiyası İcra Katibliyinin məsul əməkdaşı Emil Abbasov, YAP Zərdab rayon təşkilatının şura üzvləri, qadınlar şurasının, gənclər birliyinin üzvləri və ərazi ilk partiya təşkilatının sədrləri iştirak ediblər.**

Konfrans iştirakçıları müstəqil, demokratik, xoşbəxt və firavan Azərbaycanın yaradıcısı və qurucusu, YAP-ın müəllifi və ilhamçısı Ulu Öndər Heydər Əliyevin, ikinci Qarabağ müharibəsi şəhidlərinin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Tədbiri giriş sözü ilə açan YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova geniş hesabat məruzəsi ilə çıxış edərək, görülən işləri diqqətə çəkib. 2020-ci ilin Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bir il kimi yadda qalacağını bildirib: "Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəmir iradəsi, uzaqgörən siyasəti və böyük Sərkərdəlik məharəti sayəsində ölkəmizin ərazi bütövlüyünün bərpa olunması uğrunda xalqımızın və dövlətimizin apardığı 44 günlük Vətən müharibəsi Ermənistanın kapitulyasiyası ilə başa çatdı. Azərbaycan bu müharibədə şanlı qələbə qazandı və işğal altında



olan bütün torpaqlarımız azad olundu, həmin ərazilərdə Azərbaycanın Dövlət Bayrağı ucaldıldı. Xalqımız bu Vətən müharibəsində şəhidlər verdi və yüzlərlə yaralananlarımız oldu. Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılara isə şəfa diləyirik və onların xidmətləri heç vaxt unudulmayacaq".

Daha sonra hesabat məruzəsi ətrafında müzakirələr aparılıb. YAP İcra Katibliyinin məsul əməkdaşı Emil Abbasov partiyanın Zərdab rayon təşkilatının 2020-ci ildəki fəaliyyətinə münasibət bildirib və təşkilatın hesabatını qənaətbəxş hesab edib. Video-konfransda rayon təşkilatının şura üzvləri, gənclər birliyinin sədri Rəmzi Şirinov, qadınlar şurasının sədr müavini Nailə Əliyeva və rayon təhsil şöbəsi ərazi ilk partiya təşkilatının sədri Gülağa İsgəndərov çıxış ediblər. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən könüllülərdən ibarət bir qrup, eləcə də YAP fəalları rayon təşkilatının fəxri fərmanları ilə təltif olunublar.

***Zümrüd BAYRAMOVA***

# Böyük QAYIDIŞ - inkişaf və yüksəlişə doğru

## Prezident İlham Əliyev: “Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik”



30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları - Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və ordumuzun güclənməsi Azərbaycanın Vətən müharibəsində döyüş meydanında öz sözünü deməsi ilə nəticələndi. Azərbaycan torpaqları işğaldan azad olundu. Artıq bu ərazilərdə yeni bir dövrə - inkişaf, quruculuq dövrünə qədəm qoymuşuq. Bu Zəfəri xalqımıza yaşadan Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və ölkəmizin güclü ordusu oldu. Bu gün Azərbaycan bayrağı işğaldan azad olan Cəbrayıl şəhərində, Zəngilan şəhərində, Füzuli şəhərində, Qubadlı şəhərində Şuşada... dalğalanar. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan torpaqlarımıza səfər edərək, erməni vandallarının törətdiyi əməlləri bir daha xalqımıza göstərir və bu ərazilərdə görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verir. Əlbəttə ki, dağıntılara məruz qalmış ərazmlərimizi bütün dünya görmüş olur. Təbii ki, ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, ərazilərimizi viran qoysalar da, xalqımza məxsus din-mədəniyyət abidələrin dağıtmış olsalar da, tarixi həqiqət qələbə çalıb. Azərbaycan öz haqqına qovuşub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci Xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar. Bu ərazilərin hər birində erməni təcavüzkarlığı özünü göstərir. Dövlət başçısı “Yenə də azad edilmiş torpaqlardayıq” deyərək torpaqların bərpası prosesinə artıq başlanıldığın bildirib. Qeyd edib ki, bütün şəhərlərimizin baş planları hazırlanır: “Təqdim olunacaq, müzakirə ediləcək. Ondan sonra bərpa işlərinə start veriləcək”.

### “VANDALLAR, BARBARLAR İŞĞAL DÖVRÜNDƏ BÜTÜN BİNALARI SÖKÜBLƏR, TALAYIBLAR, DAŞLARI OĞURLAYIBLAR”

Dekabrın 1-i 2020-ci il tarixində Laçın rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapdı. Azərbaycan Prezidenti İlham Əliyevin 1 dekabr tarixində xalqa müraciətində Laçın rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirmişdi. “Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq” - deyən Cənab Prezident qeyd etmişdi ki, döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı: “Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq”. Bu gün Laçında da yeni həyat başlayır. Laçında abadlıq-quruculuq işləri həyata keçiriləcək. “Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik”, deyə bildirib.

### “LAÇIN RAYONUNUN İŞĞAL ALTINA DÜŞMƏSİ STRATEJİ NÖQTEYİ-NƏZƏRDƏN ÇOX BÖYÜK MƏĞLUBİYYƏTİMİZ İDİ”

Xatırladaq ki, Laçının işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Onların öz doğulduqlara yerlərə göndərilməsi əsas məsələrdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb.Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Burada 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, cəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. İlham Əliyev Laçın rayonunun Şuşadan sonra işğala məruz qalmış ikinci rayon olduğunu bildirib. Bildirib ki, hər bir rayonun itirilməsi böyük faciə idi: “İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb... Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər”. Vurğulamaq yerinə düşər ki, Ermənistan tərəfindən Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir.

### AZAD EDİLMİŞ TORPAQLARDA BİRİNCİ ELEKTRİK STANSİYASI İSTİFADƏYƏ VERİLDİ

“Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək bax, buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik”, deyə dövlət başçısı bildirib. Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri ilə zəngin olan bir diyardır. Cənab Prezident Laçın rayonunun ərazisində yerləşən Həkəri çayının gözəlliyini qeyd edərkən “Çayımızı da düşmən istismar etmişdir, təbiətimizi də istismar etmişdir. Biz buna son qoyduq, düşməni rədd etdik”, deyə bildirib. Qısa bir zamanda bu ərazilərdə həyat öz axarına düşəcək. Necə ki, artıq Güləbird kəndində qısa müddət ərzində inşa edilmiş “Güləbird” Su Elektrik Stansiyasının açılışı oldu. Bu, azad edilmiş torpaqlarda birinci elektrik stansiyasıdır. Erməni qəsbkarlar işğal dövründə bu stansiyanı da darmadağın etmişdilər. İndi təxminən 7000 nəfər əhali elektrik enerjisi təmin olunacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

### “BU TORPAQLARI DÜŞMƏNDƏN AZAD EDƏN MÜZƏFFƏR ORDUNUN ALİ BAŞ KOMANDANI KİMİ AZƏRBAYCAN BAYRAĞINI QALDIRMIŞAM...”

Artıq Azərbaycan xalqı öz dədə-baba yurdunu düşməndən azad edib. Tarixin səhifələri hər zaman yaddaşlardadır. Torpaqları satanlara qarşı olan nifrət heç zaman silinməz. “Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq, deyən Cənab Prezident bildirib ki, “Bax, durmuşam burada - Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”.

*Zümrüd BAYRAMOVA*

---

# YAP Tərtər rayon təşkilatının üzvləri şəhid ailələrini ziyarət ediblər

**Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə keçirilən “Şəhid ailələrinə qayğı” aksiyası çərçivəsində YAP Tərtər rayon təşkilatının üzvləri Vətən müharibəsində Şəhidlik zirvəsinə ucalan şəhid və qazi ailələri ilə görüşləri davam etdirir. Keçirilən görüşlərdə rayon təşkilatının sədri Ramiz Şabanov, rayon təşkilatının bir qrup fəal üzvləri Hüsənli kəndinin Şəhidlər xiyabanında uyuyan şəhidlərin məzarlarını ziyarət edib, qəbirləri üzərinə gül-çiçək dəstələr qoyublar, ruhlarına dualar oxunub.**

Sonra rayonun Hüsənli kəndindən şəhidlər Taleh Məmmədov Arif oğlunun, Eşqin Hüseynov Cəsarət oğlunun, Tərtər şəhər sakini qazi Zaur Nəsirov Zakir oğlunun ailələrini ziyarət ediblər. Şəhid ailələri ilə görüşlər zamanı qeyd olunub ki, hər iki şəhid müddətdən artıq xidmət edən hərbi qulluqçular kimi Vətən müharibəsində Tərtər rayonun Suqovuşan qəsəbəsinin azad olunması uğrunda gedən döyüşlərdə Şəhidlik zirvəsinə ucalmışlar.

Daha sonra şəhidlərin ailələri ziyarət olunub. Şəhid valdeynləri övladlarının torpaqlarımızın azadlığı uğrunda vuruşub qəhrəmanlıqlar göstərmələrindən fəxrlə danışaraq övladlarının Şəhidlik zirvəsinə ucalması ilə qürur duyduqlarını, “Vətən sağ olsun”,-deyə şərəf duyduqlarını, şəhid ailələri dövlətin onlara göstərdiyi diqqət və qayğıdan məmnun olduqlarını bildiriblər. Vətən müharibəsində şücaət göstərək qazi adını qazanmış Zaur Nəsirov Zakir oğlunun ailəsini ziyarət edərkən, qazimizə tezliklə sağalaraq öz hərbi xidmətini davam etməsi arzulayıblar. Şəhid ailələrinin üzvləri dövlət tərəfindən onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz təşəkkürlərini bildiriblər. Eyni zamanda, şəhid ailələrinin gündəlik qayğıları dinlənildi, onlara ərzaq sovqatı və maddi yardım göstərilib. Allah Vətən torpaqlarının azadlığı və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən bütün Şəhidlərimizə qəni-qəni rəhmət eləsin!



*RƏFİQƏ*

TƏRS BAXIŞ

# REAL-a pul ayrıldı - AXCP və Müsavat qeyzə gəldi

Natiq Cəfərli partiyasını hədəfə alanları "ağzıgöyçəklər" adlandırdı

**Artıq məlum olub ki, Milli Məclisdə təmsil edilən digər müxalifət partiyaları kimi, REAL partiyası da parlamentdə təmsil olunmasına və dövlət qeydiyyatından keçdiyinə görə dövlət büdcəsindən maliyyə alacaq. Sözügedən məlumatı partiyanın sədri İlqar Məmmədov paylaşıb. Məhz bu məlumatın ictimailəşməsindən sonra, əsasən müxalifətin radikal qanadında yer alan AXCP və Müsavat kimi partiyaların tərəfdarları sosial şəbəkələrdə nədənsə yalnız REAL partiyasını hədəfə alan çıxışlara başlayıblar. Təəccüb doğuran məqam isə budur ki, radikallar REAL rəhbərliyini iqtidarla iş birliyində, düşərgəyə xəyanətdə ittiham edirlər.**




Lakin buna rəğmən, REAL-ın verdiyi cavablar və davam edən qarşıdurmalardan doğan digər reallıqlar da maraqlıdır.

### REAL partiyası: "Bu maliyyədən ciddi elmi araşdırmalara sərf edilməsini düşünürük"

Adıçəkilən partiyanın icra katibi Natiq Cəfərli onları hədəfə alan cəbhəçilərə və müsavatçılara cavab olaraq bildirib ki, təşkilatlarının maliyyələşməsi qanunvericilik əsasındadır. Onun sözlərinə görə, partiyaya parlamentdəki təmsilçiliyinə görə dövlət qeydiyyatından keçibsə, maliyyə ayrılır və həmin maliyyənin necə və haraya xərclənəcəyi də bəlli olub. "Maliyyə yardımı ilə bağlı açıqlama verdik ki, bundan istifadə edərək dünyagörüşümüzü, ideoloji hədəfimizi dəstəkləyəcək və onu sübut edəcək ciddi araşdırmalara sərf edəcəyik. Mütəxəssislərlə çox güman ki, müqavilələr imzalanacaq. Onlar da ciddi elmi araşdırmalar ortaya qoyacaqlar ki, bu da bir ilk olacaq", deyən Natiq Cəfərli bildirib ki, təmsil olunduğu partiyası dövlətin ayırdığı maliyyə hesabına regional təmsilçilik ofisləri açacaq. "Bakıdan kənarda ofislərin açılmasına çalışacağıq. Eyni zamanda, bu maliyyədən ciddi elmi araşdırmalara sərf edilməsini düşünürük. İl ərzində 10-15 böyük sorğuların keçirilməsi də planlarımızda var. Siyasi olaraq səsləndirdiyimiz tezislərin bir elmi əsası, təməli olmalıdır. Çox təəssüflər olsun ki, siyasi partiyalar bununla heç vaxt ciddi məşğul olmayıblar. Ona görə də biz çalışacağıq ki, ayrılan vəsaitlə mütəxəssisləri cəlb edək, elmi araşdırmalar aparaq".

**Natiq Cəfərli ittihamçılara bildirib ki, vəsait hakimiyyət tərəfindən deyil, dövlət büdcəsindən ayrılır və özlərini "lider" hesab edənlər adi hökumət və dövlət ifadələri arasındakı fərqi də anlaya bilmirlər**

Natiq Cəfərli REAL-ı hədəfə alan radikal müxalifət partiyalarının rəhbərlərini "ağzıgöyçəklər" adlandırıb və bildirib ki, onlara ödənilən vəsait hakimiyyət tərəfindən deyil, dövlət büdcəsindən ayrılır və özlərini "lider" hesab edənlər adi hökumət və dövlət ifadələri arasındakı fərqi də anlaya bilmirlər.

Əslində, normal siyasi fəaliyyət mövqeyi ortaya qoyulursa və həmin fəaliyyət dövlətçilik maraqlarına xələl gətirmirsə, bunu normal müxalifətçilik kimi də qiymətləndirmək olar. Ancaq görünən budur ki, yalnız dağıdıcılıq, anti-dövlətçilik, ölkəmiz əleyhinə işləyən xarici ermənipərəst qurumlarla gizli əməkdaşlıqlar edən və özlərini "ana müxalifət partiyaları" qismində zorla ictimai rəyə sırıyan AXCP, Müsavat kimi təşkilatlar dərhal daxillərindəki daxili düşşmənçiliklərini daha çox izhar etməyə başlayırlar. O cümlədən, onlarla olmayanları dərhal "hakimiyyətə işləməkdə" ittiham etmələri isə əslində onların özlərinin kimlərə, haraya xidmət etmək faktlalrını daha açıq şəkildə ortaya çıxarmış olur.

*Rövşən RƏSULOV*

# Eduard Şarmazanov: "İkinci, daha güclü itaətsizlik dalğası olacaq"

**Baş nazirin olması üçün hakimiyyət olmalıdır, Ermənistanda isə heç bir hakimiyyət yoxdur, nəinki bir hökumət başçısı. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu Ermənistanın Respublikaçılar Partiyasının mətbuat katibi Eduard Şarmazanov 12 fevralda keçirdiyi mətbuat konfransında bəyan edib.**

"Bu gün Azərbaycan-Türk tandeminin maraqlarına xidmət edən bir insan, bir xunta var. Dövlətin və hakimiyyətin əsas funksiyası sərhədlərin toxunulmazlığı, vətəndaşların və dövlətin təhlükəsizliyini təmin etməkdir.



Bu adam, Nikol öz dəli, xain komandası ilə yalnız Dağlıq Qarabağ ermənilərinin deyil, Ermənistan vətəndaşlarının da təhlükəsizliyini qoruya bilməyəcəyini sübut etdi. Xalqın bu piratın güc piramidasında olmasının hər saniyəsində Ermənistana dağıdıcı olduğunu dərk etməsi üçün başqa nə baş verməlidir?", deyə Şarmazanov sual edib.

Ayrıca, çox sayda qurban, əsir və itkin düşənləri də o xatırlayıb.

"Yəni müharibədən sonra da bu insan barışı təmin edə bilmir. 10 noyabrdan sonra da həmin Qarabağda ərazi itkiləri qeydə alındı. 9 noyabr tarixindən, müharibədən sonra da torpaqlar, ərazilər Azərbaycana verildi. Türklərə Mehri üzərindən bir yol təqdim edərək Türkiyənin məqsədini də reallaşdırdılar", deyə partiyanın mətbuat katibi bildirib.

Şarmazanov işğalçı ölkədə daha böyük təlatümlərin olacağını proqnozlaşdırıb.

"Əminəm ki, ikinci, daha güclü itaətsizlik dalğası, ümummilli bir dalğa olacaq, çünki hakimiyyət cəmiyyət üçün başqa bir seçim qoymayıb", deyə Eduard Şarmazanov qeyd edib.

Nəzərə çatdıraq ki, 44 günlük müharibənin ardınca, Azərbaycanın Böyük Qələbəsindən sonra Ermənistanda onsuz da itaətsizlik, hərc-mərcilik, xaos hökm sürür. Paytaxt İrəvanın küçələrində narazılıqların, etiraz aksiyalarının ardı-arası kəsilmir və biri digərini əvəz edir. Hətta, hər aksiya zamanı növbəti aksiyanın daha da itaətsizliklə keçiriləcəyi anonsu verilir. Bütün bunların fonunda qeyd edə bilərik ki, sözügedən partiyanın mətbuat katibi Eduard Şarmazanovun dediklərində qeyri-adi heç nə, yeni nə isə yoxdur və həqiqətən də, bu işğalçı ölkədə daha güclü itaətsizlik dalğası gözləniləndir.

*İnam Hacıyev*



# Əli Kərimli yenə nədən "coşub"?

RƏFİQƏ

Əlbəttə ki, feysbukda!

Özünün siyasi fəaliyyətini büsbütün sosial şəbəkələr üzərində quran satqın və əxlaqsız AXCP sədri Əli Kərimli gecəli-gündüzlü milli və dövlətçilik maraqlarına qarşı çalışır. Çalışır ki, qaşınmayan yerdən "qan çıxarsın". Bu, nə birinci dəfədir, nə də sonuncu. Özü kimi satqın və əxlaqsız erməni üfunəti verən hansı şəbəkələrə diqqət verirsən, o deşiklərdən Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Leyla Yunus və bu kimi hətta şeytanla da "işbirliyi quran" satqın ermənixislətli, zatıqırıqlar çıxır. Mən də söz dedim də... Ə.Kərimli və özü kimilər nə bilir "zatı" sözü nədir. Bu zatıqırıq, ancaq Azərbaycanın ildırım sürəti ilə, bəli, ildırım sürəti ilə əsrlər boyu görünməyən Qələbə, inkişaf, özü də ildırım sürəti ilə uğurlarımızı görüb daxilləri iylənən-iylənə qalaraq sosial şəbəkələrdə çirkin əməllər sahibi olduqlarını xalqı mitinqə çağırışları edirlər. Həyasızlıq bu qədər? Hansı xalqı mitinqlərə çağırırsınız? Bu, o Azərbaycan xalqıdır ki, ölkənin Ali Baş Komandanı bir dəfə çağırış etməklə bütün xalq, bütün türk dünyası müsəlləh əsgər kimi ayağa qaxdı. Bu, o Azərbaycan xalqıdır ki, əsrlər boyu olmayan Qələbə Zəfərinə nail oldu. Bu, o çağırış idi ki, 30 illik dədə-baba torpaqlarını həmin "canavar əsgərlərimiz" mənfur donuz iyi verən, faşist xislətli işğalçı Ermənistan əsgərlərini papaqsız, şalvarsız iti qovan kimi qovaraq 44 gün ərzində azad etdi. Ancaq elə sosial şəbəkələrdə hay-küy salmaq özünüzə qalır. Baxın, əgər yadınızdadırsa, manatın dollara nisbətdə ucuzlaşmasında öz xeyri üçün istifadə etməyə cəhd göstərən Ə.Kərimli burada süni ajiotaj yaratmaq məqsədini əsas olaraq hədəf götürdü. Ancaq Azərbaycan xalqı, yaxşı bilir ki, Ə.Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Leyla Yunus, Sevinc Osmanqızı, Qənimət Zahid, Vidadi İsgəndərli... kimi fərdlərin əsl niyyəti nədir. Məqsəd öz murdar istəklərini - ölkədə sosial vəziyyəti pozmaq, "bəlkə qaytardılar" xəyallarını gerçəkləşdirmək. Ancaq anlamırlar ki, onların qatarı çoxdan gedib, çoxdan tarixin zibilliyinə atıb, üstündən də bir təpik vurub ki, bəsdir!!! Batsın səsiniz!!! Ancaq "qozbeli qəbir düzəltsə" də, görünür, bu xəyanətkar satqın və əxlaqsızları heç qəbir də düzəltməyəcək. Çünki beli əyri doğulublar, əyri də qalacaqlar. Sual olunur: kimin əlinə oynayırsan, Ə.Kərimli? Bir də, haqq nazilər, amma üzülməz. Bu fikri deməyə haqqım var. Çünki 28 ildən bəri erməni yalı ilə yemlənən sən Ə.Kərimli cinayətkarı, Vətən xainin adını "siyasi məhbus" qoyaraq, cinayətkarın müdafiəsinə qalxırsan. Məqsəd xarici qüvvələrə nökərçilik etməklə qrantlar qoparmaqdır. Ancaq beləəri bilmədidirlər ki, Vətənin halal çörəyinə kəm baxanın gözlərinə qan damar gələr, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri isə tarix heç vaxt bağışlamır. Ötən il sentyabrın 27-də işğalçı Ermənistan Azərbaycana qarşı növbəti təxribat cəhdini reallaşdırdı. Düşmən artilleriya qurğularından istifadə edərək mülki əhalini və yaşayış məntəqələrini hədəfə aldı. Azərbaycan Prezidenti, Ali Baş Komandan düşmənin hərbi təxribatının qarşısının alınması istiqamətində diplomatik siyasət aparaq həm döyüş medanında, həm də siyasi meydanda "dəmir yumruq siyasəti"lə Qələbə qazanaraq, Qalib çıxdı.

AXCP-"Milli Şura" əxlaqsızları "yanların" təbliğində...

Bu, həmişə belə olub. İndi də Vətən müharibəsi zəfərini həzm edə bilməyənlər - AXCP sədri Əli Kərimlinin nəzarətində olan "Milli Şura" xainlərinin Vətən müharibəsində əldə etdiyimiz zəfərlərimiz həzm edə bilməyərək indi də Araik Arutunyan və digərlərini təbliğ etməklə, erməni dəyirmanına su tökmək xidmətləri davam etməkdədir. Qalib xalqı, qalib əsgəri, qalib dövləti öz bazar və çayxana düşüncələri ilə ört-basdır etməklə birbaşa olmasa da, dolayı yollarla erməni aşnalarına çatdıran, bəlkə də buna görə sümük-yal payı alacaq Tofiq Yaqubludan sonra artıq AXCP təmsilçiləri də həmin paya göz dikiblər. Buna belə soyuq yanaşmaq olmaz. Ən qanunu sözü yenə də xalqındır. Əsgərimizə, dövlətimizə şər atan bu şəratanlar yığımı olan AXCP-yə yalanlarına görə xalq sözünü deməli, onlara yerini göstərməlidir. Və əlbəttə ki, bir də hüquq-mühafizə orqanları da belə məsələlərə biganə qalmamalıdır. Vətən, dövlət, xalq xainləri, düşmənə işləyən bu satqınlar yığnağı hüquqi çərçivədə də cavablarını almalıdırlar. Çünki ortada xalqımızın və dövlətimizin maraqları var və bu maraqlara qarşı çıxmaq Vətənə xəyanətdən başqa heç nə deyil!

# “Vətən”, “Bayraq”, “millət”, “xalq” deyənlər bir geriyə baxsınlar...

*Vətəni, milləti satanlar nə haqla vətənpərvərlikdən dəm vurur?*

**Məşhur fransız ədibi Viktor Hüqonun dediyi kimi: “Vətənini rüsvay etmək - ona xəyanət etmək deməkdir”. Səbəb aydındır. Satqın zehniyyəti nədən qaynaqlanır? Əlbəttə, maliyyə-pul arqumenti? Satqın yalnız məntiqləmi düşünür? - suallarına mütləq olmasa da, elmi cavablar var. Alınan nəticələr göstərir ki, sən demə, işin kökü yalnız acgözlük və pul deyil. Kimsə doğrudan da varlanmaq üçün xəyanətinə əvəz olaraq pula satılır. Məhz buna görə - xəyanətin qiyməti “yüksəkdir” . Satqın üçün hər şey - satlıq maldır, Vidadi İskəndərli kimilər üçün.**



Bu günlərdə bu satqın V.İskəndərli sosial şəbəkələrdə çağırış edərək bildirir ki, “bu gün sizin qarşınızda xalqınızın əsgəridir, qulaq asın mənim sözümə”. Və bu V.İskəndərli başlayıb “Vətən müharibəsindən dərs deməyə”. “Azərbaycan Bayrağını hər yerdə asacağıq” deyən bu satqın hansı haqla qeyrətimiz, namusumuz, olan Bayrağımızdan danışır? Özünü “xalqın əsgəri” adlandırmağa haqqı varmı? İblis xislətli V.İskəndərli kimilərin “ayılın, ayağa qalxın, qanınız axıdılana qədər qeyrətiniz olsun irəli gedin, meydanlara çıxın, qoy görsünlər ki, bizim kimi xalqın oğulları var” . Bu qədər səviyyəsiz, rəzil, mənəviyyatsızlıq olarmı? Doğrudan da, düşməni başqa yerdə axtarmaq lazım deyil. Təəccüblü deyil... Çünki satqın və istifadə olunanların anladıqları budur. Belə bir deyim var:”xəyanət ölümdən betər bir şeydir və bunu sadəcə anlamaq lazımdır”. Lakin nə Vidadi İskəndərli, nə Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Zahid və bu kimiləri üçün isə, xəyanət etmək ən adi bir məsələdir. Və belələrindən bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür. Və yenə də vurğulayıram ki, əslində, ortada təəccüblənəcək heç nə yoxdur. Hakimiyyətin uğurlarını “müxalifətin qələbəsi” kimi zorla xalqa sırımaq yalnız bu siyasi satqın və istifadə olunan Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmaqızı, Vidadi İskəndərli, Qənimət Zahid ...kimilərin canındadır, qanındadır. Elə bədəxtlik də bundadır. Onların Bayrağımızın adını çəkməyə haqları yoxdur! Çünk Bayrağımız, qeyrətimiz, mənliyimiz, namusumuzdur! Və ....

### “Vətən”, “Bayraq”, “millət”, “xalq” deyənlər bir geriyə baxsınlar...

Amma təəssüf ki, onlar geriyə çevrilməkdən qorxurlar. Çünki geridə 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talan etmə faktları, sonra isə Avropaya qaçıb 10-15 qranta Vətənə, xalqa, dövlətə qarşı erməniyə nökərçilik etmələri və digər günahları onların gözünə görünə bilər. Ancaq inanmıram, çünkü kor olan gözlər bugünkü reallıqları görə bilməzlər. Bir faktı xatırlatmaq istərdim - 1992-1993-cü illərdə Azərbaycan prezidenti olmuş Əbülfəz Elçibəy: “Rüşvət alanda milyonlarla dollar alırsınız. Alırsan, heç olmasa yüz minlərlə al, beş manat al, insafla al. Deyirlər, 200 min dollar verməlisən, yoxsa səni gömrükdən buraxmayacam, çünki sən 400 min dollar qazanacaqsan. Gəl qazancı yarı bölək...”. Və bu gün sosial şəbəkələrdə Vətənini, torpağını satıb-satılan Vidadi İskəndərli, Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmaqızı, Arif Məmmədov, Qənimət Zahid kimilər ölkədə qan tökülməsinə çalışaraq belə bir çağırışlar etməklə xalqın hiddətinə səbəb olurlar. Və bu gün sosial şəbəkə virusları cinayəti demokratiya, əxlaqsızlığı şəxsi həyat, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməyi “siyasi mübarizə” adlandıraraq özlərini “əsl müxalifətçi” hesab edirlərsə, o zaman susmaq haraya qədər? Belə bir məqamda susmaq yox!

Yetər bu qədər, Sevinc Osmanqızı, Vidadi İskəndərli, Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və bu kimi məxluqların “Azərbaycan əsgəri” adından danışmağa! Yetər bu qədər iftira dediniz! Cəmiyyət sizlərə aşırı nifrət edir, yaxın zamanlarda əlahəzrət qanun qarşısında cavab verəcəkləriniz günü səbirsizliklə gözləyir! Və xalqımız əmin olsunlar ki, Vətənə və dövlətə qarşı xəyanət yolu tutan bu satqın və naqis xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar!

***Rəfiqə HÜSEYNOVA***

# Sabiq səfir: İranın XİN rəhbəri Paşinyanı məzəmmət edib

***Ermənistanın Vatikandakı keçmiş səfiri, eks-prezident Serj Sarkisyanın kürəkəni Mikael Minasyan baş nazir Nikol Paşinyanın yarıtmaz siyasətinin ağır nəticələrindən danışıb. Azvision xəbər verir ki, keçmiş səfir bir müddət əvvəl İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin İrəvanda Paşinyanla görüşü zamanı onu məzəmmət etməsi barədə məlumat əldə etdiyini deyib.***





Onun sözlərinə görə, XİN rəhbəri Paşinyana Ermənistan hakimiyyətinin bərbad siyasətinin bölgədəki geosiyasi sistemin çökməsinə səbəb olduğunu açıq şəkildə ifadə edib. Minasyan qeyd edib ki, ona qapalı danışıqlar barədə məlumat bu yaxınlarda yüksək səviyyəli bir İran rəsmisi ilə görüşdə çatdırılıb.

Qeyd edilib ki, baş nazirin yarıtmaz fəaliyyəti nəticəsində Azərbaycanın və müttəfiqlərinin irəliləməsinə imkan verən situasiya yaranıb: “Ən paradoksal olanı budur ki, İran artıq sözün həqiqi mənasında Ermənistanla olan quru sərhəddə nəzarət edə bilmir. Çünki İrandan Sünikdən keçməklə İrəvana gedən yolu erməni hərbçilər yox, Rusiya və Azərbaycan əsgərləri idarə edirlər. Nazir Ermənistan hökumətini bütün regional tarazlığı pozduğuna görə məzəmmət edib”.

Minasyan, həmçinin bildirib ki, əslində, bu gün onlar üç paralel reallıqda yaşamağa davam edirlər. Müharibədən sonra yaradılan geopolitik konfiqurasiyada yeni reallığın formalaşması. İkinci reallıq faktiki olaraq hər gün Ermənistan və Azərbaycan sərhədində və Qarabağ ərazilərində baş verənlərdir. Üçüncüsü isə, yalnız Nikola bəlli olan, beynində dolaşan reallıqlardır.

## Ermәni antisemitizmi: Hələ də gec deyil



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Dünya faşizmə 75-76 il əvvəl qalib gəlsə də, İrəvanda hələ də “əzilməmiş” hitlerçilik ideologiyasının qalması, yaşaması, yaşadılması danılmaz fakta çevrilib. Bu fakt isə özünü bir daha Holokost qurbanlarının xatirəsinə tikilmiş memorial abidəsində də öz təsdiqini tapdı. Daha dəqiq desək, erməni-faşist vandalları abidənin məhz yəhudilərə məxsus hissəsinə, yəni ivrit dilində yazılan kəsiminə qarşı iyrənc əməl törətsələr də, qondarma erməni soyqırımı tərəfinə toxunmayıblar (?!-R.R.) Bu hal isə birinci dəfədir ki, təkrarlanmayıb. Daha əvvəllər də eyni antisemitizm münasibəti istər İrəvanda, istərsə də Ermənistanın müxtəlif bölgələrində baş verib.***

Onu da qeyd etmək yerinə düşərdi ki, Qarabağdakı münqişə fonunda Ermənistanda anti-İsrail əhval-ruhiyyəsi daha da artmışdı. Misal üçün, xatırlatmaq mümkündür ki, baş nazir Nikol Paşinyan hələ ikinci Qarabağ müharibəsinin qızğın fazasında İsrailə qarşı ittihamlar irəli sürür, guya Tel-Əvivin Azərbaycana “muzdlu döyüşçülər cəlb etdiyini” iddia edir, eyni zamanda, İsrailin Azərbaycanı müasir hərbi texnikalarla, PUA-larla təchiz etdiyini bildirirdi. Halbuki, Azərbaycanın İsraillə uzun müddətdir ki, çoxsaylı, eləcə də hərbi-texniki əməkdaşlıq mexanizmləri mövcuddur və bu münasibətlərə qarşı başqa heç bir ölkənin dil uzatması baxımından nə haqqı, nə də ixtiyarı var.

Məhz bu səbəbdən, sözügedən münasibətlərdən qıcıqlanan Ermənistanın ictimai-siyasi və rəsmi dairələri “muzdlu döyüşçü” tipli sərsəm ittihamlarını irəli sürməklə, əslində, sözügedən məsələdə - antisemitizm faktorunda iştirakçı olduğunu dolayısı ilə etiraf edir.

Lakin əldə edilən digər rəsmi məlumatlar da isbat edir ki, Ermənistan nəinki postsovet məkanında, həmçinin Avropa məkanında antisemist baxışlarına görə liderlik təşkil edən ölkələr sırasında yer almaqdadır. Misal üçün, Pew Research Center-in məlumatına görə, Ermənistanın 32 % əhalisi yəhudiləri qeyri-vətəndaş hesab edirlər. Antidiffomasiya liqası isə apardığı araşdırmalarından sonra ermənilərin 63%-nin yəhudilərə nifrət etdiyini bəlli idib. Bu, eyni zamanda Ermənistanın ultramillətçilər toplumuna çevrildiyinin sübutudur.

Faktlardan biri də budur ki, antisemit baxışları ilə yanaşı, həm də anti-islamçılıq, yaxud islamofobiya, türkofobiya kimi davranışları ilə də seçilən ermənilər istər əvvəllər, istərsə də hazırkı məqamda öz faşist baxışları üzərində qalmaqda davam edirlər. Məscidlərin dağıdılması, məzarlıqların təhqirlərə, vandallıqlara məruz qoyulması, Zəngilanda Böyük Vətən Müharibəsində həlak olmuş əsgərlərin xatirəsinə ucaldılmış abidə kompleksinin məhv edilməsi, Cəbrayıldı “Drujba” (Dostluq) bulağının dağıdılması, tarix, mədəniyyət abidələrinin yer üzündən silinməsi və bütün bunların yerinə “qədim erməni tarixinin” yazılması kimi faktorların hər birinin arxasında bir erməni faşizminin aşkar təhlükə mənbəyinin dayandığı şübhəsizdir.

Bu gün Xocavəndin Rusiya sülhməramlılarının nəzarətində olan ərazisində erməni cəlladı və hitlerçi faşisti Njdenin büstünün ucalması, həmçinin İrəvanın mərkəzindəki böyük heykəli də deyilənləri kifayət qədər əks etdirməkdədir. Bütün bunlardan sonra bir daha əmin olunur ki, ermənilər heç vaxt, əsla öz kirli, xəstə faşizm ideologiyalarından əl çəkənlərə bənzəmirlər və belədirsə, hələ də gec deyil, bütün bunların qarşılığı beynəlxalq aləmdə öz hüquqi tərəfi ilə verilməlidir. Yoxsa yenə də gec olacaq, çox gec...

# Fikrət Sadıqov: Sülhməramlıların missiyası sülhü qorumaqdırsa...



“Hər hansı hərbi birləşmələrin təlimlər keçməsi normal haldır. Lakin başqa bir ölkənin torpağında sülhməramlı missiya kimi fəaliyyət göstərən hərbiçilər hərbi təlim keçmək istəyirsə, sözsüz bu məsələ həmin ölkənin rəhbərliyi ilə razılaşdırılmalıdır”. Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib. Ekspertin sözlərinə görə, bu cür özbaşınalıqla məqsədəuyğun deyil, ona görə də bunu razılaşdırılmış formada etmək lazımdır: “Mən başa düşürəm onlar hərbiçilərdir və vaxtaşırı treyninqlər, təlimlər keçirməlidirlər. Lakin onların hər halda ilk vəzifələri sülhməramlılıqdır”.

F.Sadıqov vurğulayıb ki, sülhməramlılar atəşkəsə nəzarət edirlər və atəşkəsin qorunmasına öz töhfələrini verməlidirlər: “Əgər onlar bu məqsədlə hansısa təlimlər keçirirlərsə keçirsinlər, lakin burada başqa bir dövlətin irimiqyaslı təlimlərindən söhbət gedirsə, bu bir çox suallar doğurur və mütləq şəkildə bu suallara aydınlıq gətirilməlidir”.

# Qarabağ "yaşıl enerji" zonasına çevriləcək

***Qarabağ bölgəsində səfərdə olan Azərbaycan Prezidenti bölgənin qısa müddətdə müasir və təbii zonaya çevriləcəyini bəyan edib***

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 1-ci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar. Prezident İlham Əliyev ilk olaraq Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyub. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına imkan verəcək.

Dövlət başçısı bu dəmir yolunun bərpasının əhəmiyyətindən danışıb: "Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək... Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək.

Həmçinin, bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə Azərbaycanı Türkiyə ilə birləşdirən 2-ci dəmir yolu şəbəkəsi yaradılacaqdır. Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə 2-ci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri də bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Demək olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər".

Sonra dövlət başçısı Zəngilan rayonunun Üçüncü Ağalı kəndinə gedib: "Torpaqların bərpası prosesi artıq başlamışdır... Bütün şəhərlərimizin baş planları hazırlanır. Təqdim olunacaq, müzakirə ediləcək. Ondan sonra bərpa işlərinə start veriləcək. Birinci "ağıllı kənd" layihəsi Zəngilan rayonunda icra ediləcək. Bu gün layihəyə start verilir. Artıq ilkin araşdırmalar aparılıb".

Verilən məlumata görə, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir.

Qeyd edək ki, Prezident İlham Əliyev çıxışlarında azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevriləcəyini dəfələrlə bildirib. Erməni işğalından azad olunmuş ərazilərin dövlətimizin başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Azərbaycan Prezidenti Qubadlı və Laçın rayonlarında da olub. Yolu boyu Qubadlının düşmən tərəfindən dağıdılmış, xaraba qoyulmuş kəndləri barədə danışan dövlət başçısı bu yaşayış məntəqələrinin yüksək səviyyədə bərpa ediləcəyini deyib: "Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik".



Daha sonra Laçın rayonuna səfər edən dövlət başçısı orada görülən işlərdən danışıb: "Güləbird kəndinə gəlməyimizin səbəbi qısa müddət ərzində inşa edilmiş su elektrik stansiyasının açılışıdır və bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq, digər stansiyalar da tikiləcək. Azad edilmiş bütün torpaqlarda su, Günəş, külək enerjisindən istifadə edəcəyik.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş komandanı İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırıb. Burada görüləcək işlərdən danışan İlham Əliyev deyib: "Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin. Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və 1-ci mərhələ başa çatıb. "Azərişıq" artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün "Azərenerji" Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir.

Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyalarını darmadağın edib, avadanlığı buradan çıxarıb, stansiyaların binalarını da dağıdıb. O cümlədən Güləbird Su Elektrik Stansiyası düşmən tərəfindən dağıdılmışdır. Əks-təqdirdə, bu stansiya elə dekabrın 1-dən bizə xidmət göstərəcəkdi. Ancaq verilən tapşırıqlarım qısa müddət ərzində yerinə yetirildi və bu gün biz 8 meqavat gücündə Güləbird SES-in açılışını qeyd edirik. Bu, azad edilmiş torpaqlarda istismara verilən 1-ci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 SES yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpaolunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında ən böyük potensiala "Xudafərin" və "Qız qalası" su elektrik stansiyaları malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni, biz bir neçə ildən sonra 120 meqavat "Xudafərin" və "Qız qalası" stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır".

Prezident İlham Əliyev Qarabağın yaşıl zonaya çevriləcəyini bəyan edib: "Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik".

Qeyd edək ki, "Güləbird" SES işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təmin edəcək. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

Sonra dövlətimizin başçısı Cəbrayıl rayonunun Soltanlı kəndinə gedib. Prezident burada görüləcək işlərdən danışıb: "Tapşırıq verilib tədbirlər görülsün ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilsin. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evləri də, təbiəti də bərpa edəcəyik. Eyni zamanda, göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Biz qısa müddət ərzində bütün imkanlarımızı, texnikanı, işçi qüvvəsini səfərbər etmişik və 7 min hektarda əkin işləri aparılmışdır. O əkin sahələrinə də baxacağam. Builki mövsümdə təqribən 20-25 min hektarda əkin işləri aparılacaq. Yəni, biz vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Əlbəttə ki, azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlirlər əldə etmişdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək".

Göründüyü kimi, Qarabağda minalardan təmizləmə işləri ilə paralel böyük infrastruktur layihələri icra edilir, sosial və iqtisadi əhəmiyyətli işlərə başlanılıb. Tezliklə, bu bölgənin abad, inkişaf etmiş, gözəl bir zonaya çevriləcəyinə şübhə yoxdur. Bunun üçün bütün imkanlar səfərbər edilir. Ermənistanın xarabalığa çevirdiyi Qarabağ təkcə Azərbaycanın deyil, dünyanın ən gözəl bölgələrindən birinə çevriləcək.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

ARAŞDIRMA

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

16 fevral

QARABAĞ AZƏRBAYCANDIR!

# UEFA klublarımıza nə qədər pul ödəyib?



**UEFA futbol üzrə Azərbaycan Premyer Liqasında çıxış edən, lakin UEFA Çempionlar Liqası və Avropa Liqası turnirlərinin qrup mərhələsində iştirak etməyən klublara 2019/20-ci il mövsümünü əhatə edən qurumun "Həmrəylik ödəmələri və uşaq futbolunun inkişafı" proqramı çərçivəsində əlavə maliyyə vəsaiti ayırıb. AFFA-nın saytında yer alan məlumatda deyilir ki, vəsait AFFA-nın vasitəçiliyi ilə klubların hesabına köçürülüb.**

"Qarabağ" ötən mövsüm Avropa Liqasının qrup mərhələsində oynadığı üçün bu komandaya pul ayrılmayıb. Premyer Liqanın digər 7 təmsilçisinin - "Neftçi", "Səbail", "Qəbələ", "Zirə", "Sumqayıt", "Sabah" və "Keşlə"nin hər birinə isə 74 633 71 avro ödənilib.

Qeyd edək ki, "Keşlə" üçün nəzərdə tutulmuş vəsait aylıq cari xərcləri ödəmək üçün növbəti aylarda Futbolun İnkişaf Fondundan klubun hesabına köçürüləcək.

# Mourinyo qovulacaqmı?



İngiltərənin"Tottenhem" futbol klubunun baş məşqçisi Joze Mourinyonu istefaya göndərmək fikri yoxdur. Bu barədə "The Athletic" nəşri məlumat yayıb. Bildirilib ki, London təmsilçisi Premyer Liqanın 24-cü turunda son 6 matçın 5-də uduzub. Komanda son olaraq "Mançester Siti"yə məğlub olib (0: 3) . Komanda Premyer Liqada 36 xalla 9-cu pillədə qərarlaşıb.

Nəşri yazıb ki, klub 58 yaşlı mütəxəssisi vaxtından əvvəl qovmağı düşünmür. Mourinyonun 2019-cu ilin noyabr ayındakı müqaviləsində ləğv maddəsi yoxdur.

# Bitki yağını alarkən fikir verin...



**Bitki yağları ən tez-tez istifadə olunan məhsullardandır. Mütəxəssislər sübut ediblər ki, ürək-damar sisteminin sağlamlığı üçün insan hər gün 1 x.q. bitki yağı istehlak etməlidir. Bu mənada ən faydalı bitki yağı zeytun yağı sayılır. Mütəxəssislər bitki yağını seçərkən bəzi göstəricilərə fikir verməyi tövsiyə edirlər.**

Yemək bişirmək üçün rafinə edilmiş, salatlar üçün isə rafinə edilməmiş yağdan istifadə edin. Rafinə edilməmiş yağı qızdırmaq olmaz, bu zaman ziyanlı maddələr ifraz olunur.

Rafinə edilmiş yağın heç bir qoxusu və dadı olmur. Əksinə isə rafinə edilməmiş yağ öz spesifik qoxusunu və dadını saxlayır. Ən yaxşı bitki yağı "premium" növü olandır. Daha sonra əla növ və 1-ci növ gedir. Soyuq sıxılma üsulu ilə hazırlanmış yağ daha faydalı sayılır.

Bitki yağı işıq sevmir və işığın təsirindən tez xarab olur. Bu səbəbdən bitki yağını alanda dükandakı rəfin dərinliyində yerləşən yağı götürün. Daha təzə yağ seçin. Yararlılıq müddəti bitənə yaxın yağın keyfiyyəti azalır. Rafinə olunmuş bitki yağı şəffaf və açıq sarı rəngində olmalıdır. Yağın rəngi nə qədər açıqdırsa, yağ da bir o qədər yaxşı sayılır.

Bəzən bitki yağlarının üzərində "E vitamini ilə", "tərkibində E vitamini var" və s. kimi qeydlər olur. Bu sadəcə reklam hiyləsidir. İstənilən bitki yağında bu faydalı və vacib vitamin mövcuddur.

Yağın üzərində "xolesterinsiz" yazılıbsa, bu da sadəcə reklam üçündür. Buna aldanmayın və artıq pul ödməyin! Heç bir bitki yağında xolesterin yoxdur və ola da bilməz.

Növbəti reklam hiyləsi bitki yağının üzərində "konservantsız" qeydinin olmasıdır. Bitki yağlarının tərkibinə konservantlar yoxdur. Konservantlar məhsulda mikrobların inkişafına mane olur, lakin bitki yağında mikroblar yaşaya bilmir. Həmçinin bitki yağın tərkibinə demək olar ki, heç bir kimyəvi qatqını (rəngverici və s.) əlavə etmək mümkün deyil.

*Samirə Tağıyeva*

# Mərakeşli futbolçu "Çelsi"dən gedir?



"Çelsi"nin futbolçusu Hakim Zieş komandadan ayrılmaq istəyir. Qol.az "Corriere dello Sport"a istinadən xəbər verir ki, komandanın baş məşqçisi Tomas Tuhel 27 yaşlı yarımmüdafiəçini ehtiyyat oyunçu kimi görür. Buna görə də Zieş yayda klubunu dəyişməyə qərar verib. Onunla "Yuventus" və "Milan" yaxından maraqlanır.

Qeyd edək ki, ötən ilin fevralında "Ayaks"dan 44 milyon avroya "Çelsi"yə keçən mərakeşli futbolçu bu mövsüm 19 matça çıxaraq, 2 qol vurub və 3 qolun ötürməsini verib.

## ELAN

**"Bakı Ağırlaşdırıcılar" ASC-nin səhmdarlarının nəzərinə**

*02 aprel 2021-ci il, saat 11-00-da "Bakı Ağırlaşdırıcılar" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.*

İclasın gündəliyində aşağıdakı məsələlər durur.

1.Səhmdar cəmiyyətinin idarəetmə orqanlarının 2020-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatlarının təsdiq edilməsi.

2. Səhmdar cəmiyyətinin mənfəət və zərərinin bölüşdürülməsi.

3. Digər məsələlər

Ünvan: Bakı şəhəri, Qaradağ rayonu, Salyan şosesi 22-ci km (zavodun inzibati binasında)

***Əlaqə telefonu: (012) 565 21 34***
***"Bakı Ağırlaşdırıcılar" ASC-nin İdarə Heyəti***

# Qaradağda yolu keçən piyadanı maşın vurub öldürdü



Paytaxtın Qaradağ rayonunda baş verən yol-nəqliyyat hadisəsi nəticəsində piyada həlak olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonun Qobustan qəsəbəsi ərazisində Bakı şəhər sakini R.İbrahimov idarə etdiyi "VAZ-2107" markalı avtomobillə yolu keçən qəsəbə sakini K.Nəcəfzadəni vurub. Piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı Qaradağ Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

# "Çocuklar duymasın"ın aktyoru 30 yaş kiçik sevgilisi ilə



Türkiyədə bir neçə il əvvəl "Çocuklar duymasın" serialı ilə məşhurlaşan, Azərbaycan əsilli aktyor Tamer Karadağlının özündən 30 yaş kiçik sevgilisi ilə yeni fotosu yayılıb.

Belə ki, pianoçu sevgilisi Iraz Yıldız aktyorla selfisini paylaşıb. Onların xoşbəxt şəkli münasibətlərinin qaydasında davam etdiyindən xəbər verir. Xatırladaq ki, 54 yaşlı Tamer Karadağlının 24 yaşlı Iraz Yıldızla sevgili olması ötən ilin sonunda məlum olmuşdu.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**